HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 19 (659) ▪ 22 may 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev Şamaxıda olmuşdur

*Mayın 16-da Şamaxı rayonuna səfər edən Prezident İlham Əliyev əvvəlcə ulu öndər Heydər Əliyevin şəhər mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuş, burada yaradılan şəraitlə tanış olmuşdur.*

Sonra dövlət başçısı Heydər Əliyev Fondu tərəfindən Şamaxıda inşa olunmuş Uşaq Yaradıcılıq Mərkəzinin açılışında iştirak etmişdir. Bildirilmişdir ki, üçmərtəbəli yeni müasir binada yerləşən mərkəzdə ümumilikdə 54 tədris, iki qrim, iki rəsm, iki rəqs və digər yardımçı otaqlar, akt zalı, sərgi salonu yaradılmışdır. Burada tar, kamança, piano və digər musiqi fənləri tədris olunacaqdır. Tədris sinifləri və digər yardımçı otaqlar ən müasir avadanlıqla təchiz edilmişdir. Binada müasir elektrik və istilik sistemləri quraşdırılmışdır. Mərkəzin akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait vardır.

Azərbaycan Prezidenti Şamaxıda yenidən qurulan Olimpiya İdman Kompleksi ilə tanış olmuş, futbol meydançasının, üzgüçülük hovuzunun və yeni idman zalının açılışında iştirak etmişdir. Dövlətimizin başçısına bildirilmişdir ki, regionun ən böyük olimpiya-idman komplekslərindən biri olan bu idman ocağında yarışların, təlim-məşq toplantılarının və digər mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün hər cür şərait vardır. Son illərdə Şamaxıda idmanın müxtəlif növlərinin inkişafı sürətləndiyindən, yeni idman qurğularının tikintisinə ehtiyac yaranıb. Bu məqsədlə 2010-cu ilin fevralında yeni idman zallarının və qurğularının tikintisinə başlanmış, layihəyə əsasən, 2500 kvadratmetr olan binaların fasadı dəyişdirilmiş, müasir dizaynlı materiallar və şüşələrlə örtülmüşdür. Mərkəzin bütün havalandırma, işıqlandırma sistemləri yenilənmişdir. Üzgüçülük hovuzunun dam örtüyünün metal konstruksiya hissələri dəyişdirilmişdir.

Prezident İlham Əliyev Astrofizika Rəsədxanasında əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə də tanış olmuşdur. Bildirilmişdir ki, rəsədxana 1959-cu ildə Azərbaycanın tanınmış alimləri Həsən Əliyevin və Yusif Məmmədəliyevin təşəbbüsü ilə yaradılmış və 1960-cı ildə fəaliyyətə başlamışdır. Dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən rəsədxana çətin müşahidə edilən cənub göyünün öyrənilməsində dünyanın bir çox rəsədxanası ilə müqayisədə üstünlüklərə malikdir. Mütəxəssislərin rəyinə görə, burada aydın gecələrin sayı il ərzində 200-ə çatır.

2008-ci ildən sonra Şamaxı Astrofizika Rəsədxanasının həyatında yeni əlamətdar mərhələ başlanmışdır. Dövlət başçısının imzaladığı sərəncamlara əsasən, rəsədxananın maddi-texniki bazasının gücləndirilməsi və əsaslı təmir-tikinti işlərinin aparılması üçün dövlət büdcəsindən və Prezidentin Ehtiyat Fondundan ümumilikdə 8 milyon manat vəsait ayrılmışdır. Sərəncamların icrası nəticəsində bu elmi-tədqiqat mərkəzinin maddi-texniki bazası möhkəmlənmiş, burada əsaslı təmir və yenidənqurma işləri aparılmış, təzə binalar inşa olunmuş, müasir qurğular işə salınmışdır. Rəsədxanada inzibati bina, sərgi və 110 nəfərlik mühazirə zalları, 6 teleskop binası, o cümlədən 2 metrlik əsas teleskopun binası əsaslı təmir olunmuş, 110 nəfərlik yeməkxana tikilmişdir. Bina ilə yanaşı, horizontal Günəş teleskopunun, 70 və 35 santimetrlik teleskopların, həmçinin alman teleskopunun binaları da əsaslı təmir olunmuşdur. Əsas teleskopun idarəetmə sistemi tam avtomatlaşdırılmışdır. Rəsədxananın bütün teleskoplarına müasir və yeni işıq qəbulediciləri alınmış, xüsusi kameralar və kriogen qurğusu quraşdırılmışdır. Ümumilikdə rəsədxana astrofizika və fundamental astronomiya sahəsində keçmiş sovet və postsovet elmi proqramlarına mühüm töhfələr vermişdir.



Prezident İlham Əliyev mayın 17-də Şamaxı Cümə məscidinin açılış mərasimində iştirak etmişdir. Dövlətimizin başçısına məsciddə aparılan bərpa və yenidənqurma işləri barədə məlumat verilmiş, bildirilmişdir ki, Azərbaycan və Şərq memarlığının nadir incilərindən olan Şamaxı Cümə məscidi yeni həyatına başlayır. Müsəlman aləminin ən müqəddəs ibadətgahlarından olan məscid, bütövlükdə, Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindəndir.

Ötən illər ərzində bir neçə dəfə təmir olunsa da, bu dini ibadətgahın əsaslə şəkildə yenidən qurulmasına ehtiyac yaranmışdı. Heydər Əliyev Fondunun «Tolerantlığın ünvanı: Azərbaycan» layihəsi çərçivəsində Şamaxı Cümə məscidi əsaslı şəkildə yenidən qurulmuşdur. Məsciddə eyni vaxtda 1500 nəfər ibadət edə bilər. Yenidənqurma işləri ilə yanaşı, Şamaxı Cümə Məscidi Dövlət Tarix-Memarlıq abidəsinin ətrafında qədim hücrələr də bərpa olunmaqla əsaslı abadlıq işləri aparılmışdır. Məscidin həyətində əsaslı abadlıq işi görülmüş, iki hovuz inşa edilmiş, 6 qalereya yaradılmışdır. İkimərtəbəli inzibati binanın sahəsi 804 kvadratmetrdir. Məsciddə konfrans salonu və digər yardımçı otaqlar yaradılmışdır. 520 kvadratmetrlik məişət binasında 250 nəfərlik mərasim salonu və müasir avadanlıqla təchiz edilən mətbəx yerləşir. Burada yaradılmış zəngin kitabxana dindarların istifadəsinə verilmişdir. Məscidlə yanaşı, Seyid Əzim Şirvani parkı da yenidənqurmadan sonra füsunkar görkəm almışdır. Ümumi sahəsi bir hektara yaxın olan məscidin ilkin görkəminə qaytarılmasına xüsusi diqqət yetirilmişdir.

Şamaxı Cümə məscidində görülən işləri yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirmişdir ki, Azərbaycan dövləti üçün milli- mənəvi dəyərlər hər şeydən üstündür. «Biz öz dini və milli ənənələrimizə sadiqik. Bu möhkəm təməl üzərində müasir dövlət, müasir Azərbaycan qururuq. Müstəqil, azad Azərbaycan dövləti bu böyük işin öhdəsindən layiqincə gələ bilmişdir. Bu gündən başlayaraq məsciddə bütün lazımi mərasimlər keçiriləcəkdir», - deyən dövlət başçısı Azərbaycanda bütün dini abidələrin bərpa edildiyini, hazırda ölkəmizdə fəaliyyət göstərən məscidlərin sayının 1800-ə yaxın olduğunu diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, bu gün Azərbaycan dünyada tolerantlıq mərkəzinə çevrilmiş, ölkəmizdə fəaliyyət göstərən bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır, Azərbaycanda nə dini, nə milli zəmində heç vaxt heç bir qarşıdurma, anlaşılmazlıq olmamışdır və olmayacaqdır.

## rəsmi xronika

### Azərbaycan-Yunanıstan əlaqələri dinamik inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da ölkəmizdə işgüzar səfərdə olan Yunanıstanın Baş naziri Antonis Samaras ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Yunanıstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni sahələrdə uğurla inkişaf etdiyi qeyd olunmuşdur. Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın bundan sonra da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulanan görüşdə ikitərəfli münasibətlərin Azərbaycan-Avropa İttifaqı əlaqələri baxımından önəmli olduğu bildirilmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılmışdır. Danışıqlar işçi nahar zamanı da davam etdirilmişdir.

### Dövlət başçısı Dədə Qorqud parkında olmuşdur

Prezident İlham Əliyev mayın 20-də Bakının Nərimanov rayonu ərazisində yeni salınan Dədə Qorqud parkında həyata keçirilən işlərlə tanış olmuşdur. Dövlət başçısı parkın ərazisini gəzmiş, burada həyata keçirilən işlərlə bağlı ona geniş məlumat verilmişdir.

Dövlətimizin başçısı parkda görüləcək işlərlə maraqlanmış, tövsiyə və tapşırıqlarını vermişdir.

### Azərbaycan Prezidenti türkiyəli naziri qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Türkiyə Respublikasının milli təhsil naziri Nabi Avçının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən təhsil sahəsində uğurla inkişaf etdiyi vurğulandı. Qəti əminlik ifadə olundu ki, ölkələrimiz arasında təhsil sahəsində mövcud olan sıx əməkdaşlıq əlaqələri gələcəkdə də uğurla inkişaf edəcəkdir.

Görüşdə Türkiyə Respublikasının milli təhsil naziri Nabi Avçının ölkəmizə səfərinin bu sahədə əməkdaşlığımızın daha da möhkəmləndirilməsi baxımından önəmi qeyd olundu.

# Ümummilli liderin Həştərxanda təntənəli yubileyi

*Mayın 20-də Həştərxan Dövlət Filarmoniyasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş təntənəli mərasim olmuşdur.*

Mərasimdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov başda olmaqla Azərbaycan nümayəndə heyəti, Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin, Həştərxan şəhər administrasiyasının və Həştərxan hökumətinin rəhbərləri, şəhər ictimaiyyətinin və Azərbaycan diasporunun nümayəndələri iştirak etmişlər. Tədbirdən əvvəl mərasim iştirakçıları Azərbaycan Prezidenti İlham Əliyevin Həştərxanda Heydər Əliyevin abidəsinin və ümummilli liderin adını daşıyan parkın açılışında iştirakını, habelə Rusiyanın bu şəhərində müxtəlif sosial və humanitar layihələrin həyata keçirilməsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakını əks etdirən fotostendlə tanış olmuşlar.

Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin mərasimdə çıxış edərək demişdir: «Böyük və kiçik millətlər yoxdur, öz millətini və deməli, öz ölkəsini ucaldan görkəmli şəxsiyyətlər var. Belə şəxsiyyətlər arasında görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xüsusi yer tutur».

O qeyd etmişdir ki, müasir Azərbaycanın uğurları, tərəqqisi, inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Qubernator vurğulamışdır: «Heydər Əliyev çətin dövrdə Azərbaycana rəhbərlik etmişdir. Lakin o, nəinki ölkədə vəziyyəti sabitləşdirməyə nail olmuş, həm də müstəqil Azərbaycanın sonrakı davamlı sosial-iqtisadi inkişaf şəraitini təmin etmişdir». A.Jilkin qeyd etmişdir ki, bu gün Azərbaycan postsovet məkanındakı bütün dövlətlərdən daha dinamik inkişaf edən ölkədir. Bu gün Azərbaycan Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə yaratdığı imkanlardan istifadə edir. O demişdir: «Şübhəsiz, bugünkü Azərbaycan ona ən yaxşı abidədir».

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Həştərxanda ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illiyi münasibətilə tədbirlərin təşkil edilməsinə və keçirilməsinə görə qubernator Aleksandr Jilkinə və vilayətin rəhbərliyinə minnətdarlığını bildirmişdir.

O vurğulamışdır ki, Heydər Əliyev təkcə Azərbaycan xalqının deyil, bütövlükdə keçmiş Sovet İttifaqının xalqlarının həyatında böyük rol oynamışdır. Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin nizamlanmasında Heydər Əliyevin rolu barədə söhbət açaraq demişdir ki, onun ölkəyə rəhbərliyi dövründə Rusiya Federasiyası ilə dostluq əlaqələri daha da canlanmışdır. Məhz Heydər Əliyevin səyləri sayəsində Azərbaycan-Rusiya münasibətləri mürəkkəb transformasiya mərhələsini uğurla dəf edərək, konstruktiv əməkdaşlığa əsaslanan yeni inkişaf pilləsinə çatmışdır.

Ə.Həsənov qeyd etmişdir ki, 2001-ci ildə Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfəri iki ölkənin qarşılıqlı münasibətlərində mühüm hadisə olmuşdur. «Bu səfər iki ölkənin münasibətlərində yeni mərhələ açmışdır. O dövrdə Heydər Əliyev V.Putinin səfərini tarixi hadisə kimi səciyyələndirmişdi», - deyən şöbə müdiri vurğulamışdır ki, Rusiya ilə qarşılıqlı münasibətlər dərin tarixi köklərə əsaslanır və Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. Ə.Həsənov demişdir: «Azərbaycan dövləti Rusiya ilə mehriban qonşuluq və dostluq əlaqələrinin, keyfiyyətcə yeni dinamika kəsb etmiş və etimada əsaslanan münasibətlərin möhkəmlənməsi və inkişafı məsələsində qətiyyətli mövqe tutur. Bu gün Prezident Vladimir Putin və Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasi xətt sayəsində Azərbaycan-Rusiya münasibətləri hərtərəfli strateji qarşılıqlı fəaliyyət və tərəfdaşlıq səviyyəsinə çatmışdır. Bu gün ölkələrimiz ticari-iqtisadi, elmi-texniki və mədəni sahələrdə uğurla əməkdaşlıq edir».

Şöbə müdiri qeyd etmişdir ki, Azərbaycan Rusiyanın bir sıra regionları, o cümlədən Həştərxan vilayəti ilə sıx tərəfdaşlıq əlaqələri qurmuşdur. Bu vilayətlə Azərbaycan arasında imzalanmış onlarca saziş müxtəlif layihələrin həyata keçirilməsinə imkan yaradır. O, Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş layihələrə nümunə kimi Heydər Əliyevin adını daşıyan parkın və məktəbin, Rusiya-Azərbaycan Dostluq Körpüsünün açılmasını göstərmişdir. Ə.Həsənov demişdir: «Bugünkü tədbir Azərbaycan ilə Rusiya arasında sarsılmaz dostluğun parlaq təzahürü, qarşılıqlı anlaşmanın daha da möhkəmlənməsi və əməkdaşlığın genişlənməsi işinə sanballı töhfədir. Azərbaycan bundan sonra da Rusiya ilə əməkdaşlıq sahələrini genişləndirəcəkdir».

Sonra Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin «Gənclər təbiətə münasibətdə zorakılığın əleyhinədir» layihəsi çərçivəsində Həştərxanda keçirdiyi müsabiqənin qalibləri mükafatlandırılmışdır.

Tədbir Azərbaycanın və Həştərxan vilayətinin yaradıcı kollektivlərinin iştirak etdiyi konsert proqramı ilə davam etmişdir.

Tədbir başa çatandan sonra Həştərxanda möhtəşəm atəşfəşanlıq olmuşdur.

2 | Vergilər naziri Qubada şimal bölgəsindən olan vətəndaşları qəbul etmişdir

3 | Vergilər Nazirliyi ən müasir təlim metodları tətbiq edir

5 | Fitch Ratings Azərbaycanın kredit reytinqini sabit saxlayıb

8 | Azərbaycanda velosiped idmanının böyük inkişaf perspektivləri var

# İran Milli Vergi Administrasiyası Azərbaycan təcrübəsindən faydalanmaq niyyətindədir



*İran İslam Respublikasının Milli Vergi Administrasiyasının rəhbəri Əli Əskərinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Məqsəd ölkəmizin milli vergi sistemi ilə yaxından tanış olmaq, qarşılıqlı maraq doğuran sahələrdə təcrübə mübadiləsi aparmaq idi. Nümayəndə heyətinə İran Milli Vergi Administrasiyasının birbaşa vergilər departamentinin direktor müavini Hüseyn Vəkili, İnformasiya texnologiyaları mərkəzinin direktoru Nader Aryah, İran parlamentinin iqtisadi missiyasının nümayəndələri Həmid Reza Hosusi və Məhnaz Bəhməni daxil idi.*

Səfər çərçivəsində qonaqlar Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi ilə tanış olmuş, son illər vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi istiqamətində Azərbaycanda həyata keçirilən islahatlar, yeni informasiya texnologiyalarının tətbiqinə dair təqdimatları dinləmişlər. Nümayəndə heyətinin üzvləri Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin «ASAN xidmət» Mərkəzinin, Vergilər Nazirliyinin «bir pəncərə» sahibkarlıq subyektlərinin qeydiyyatı sisteminin və Xüsusi Rejimli Vergi Xidməti Departamentinin fəaliyyəti ilə də yaxından tanış olmuşlar.

Mayın 14-də vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov iranlı nümayəndə heyətini qəbul etmişdir. Qonaqları salamlayan nazir ölkələrimiz arasında mövcud olan mehriban qonşuluq münasibətləri barədə danışmış, hər iki ölkənin rəhbərləri arasındakı dostluq münasibətlərinin hökumətlər və ayrı-ayrı qurumlar arasında əməkdaşlığın inkişafına da müsbət təsir göstərdiyini vurğulayaraq, Azərbaycan və İranın vergi orqanları arasında əlaqələrin gələcəkdə daha da inkişaf edəcəyinə ümidvar olduğunu bildirmişdir.

Ölkəmizin vergi sistemində son illər aparılan islahatlar və qarşıya qoyulmuş strateji hədəflər barədə məlumat verən F.Məmmədov yaxın gələcəkdə müasir informasiya texnologiyalarının tətbiqi, birinci mərhələsi başa çatmaqda olan elektron audit layihəsinin həyata keçirilməsi, partnyorluq sazişlərinin bağlanılmasına başlanılması, nəzarət sistemində daha şəffaf və asan yollardan istifadə olunmasına üstünlük verilməsi kimi məsələlərin prioritet olduğunu diqqətə çatdırmışdır.

İran Milli Vergi Administrasiyasının rəhbəri Əli Əskəri ölkələrimiz arasında qonşuluq, dostluq və sıx əməkdaşlıq münasibətlərinin, İran İslam Respublikası və Azərbaycan Respublikasının ikitərəfli və beynəlxalq səviyyədə bütün sahələrdə möhkəm əməkdaşlıq əlaqələrinin olduğunu qeyd etmişdir. Əli Əskəri Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və yeni texnoparkların yaradılmasının maraqlı təcrübə olduğunu qeyd etmiş, bu istiqamətlərdə əməkdaşlıq üçün kifayət qədər böyük potensialın mövcudluğunu vurğulamışdır.

Cari ilin yanvar ayında Tehranda EKO üzvü olan ölkələrin vergi administrasiyaları rəhbərlərinin iclasında Azərbaycan nümayəndə heyətinin təqdimatlarının böyük maraq doğurduğunu xatırladan cənab Əli Əskəri bundan sonra ölkəmizin vergi sahəsindəki təcrübəsi ilə yerində tanış olmaq üçün İran Milli Vergi Administrasiyasının rəhbər vəzifəli şəxslərindən və İran parlamentinin nümayəndələrindən ibarət böyük bir nümayəndə heyəti ilə Azərbaycana gəldiklərini və burada gördüklərindən çox məmnun olduqlarını bildirmişdir.

Xüsusilə Azərbaycanın vergi sistemində son 10 ildə aparılmış islahatların nəticələrinin onlar üçün böyük maraq doğurduğunu diqqətə çatdıran İran Milli Vergi Administrasiyasının rəhbəri xüsusilə vergi sisteminin elektronlaşdırılması, vergi ödəyicilərinə xidmət, ƏDV inzibatçılığı sahəsində Azərbaycanın əldə etdiyi təqdirəlayiq təcrübədən faydalanmaq niyyətində olduqlarını bildirmişdir.

Azərbaycanın vergilər naziri Fazil Məmmədov ölkələrimizin vergi administrasiyalarının strateji hədəfləri arasında böyük oxşarlıqlar olduğuna diqqət çəkərək, inkişaf etmiş Qərb ölkələrinin təcrübəsindən faydalanmaqla yanaşı, qonşu Şərq ölkələrində də kifayət qədər müsbət təcrübə toplandığını və bu təcrübədən də yararlanmaq üçün ikitərəfli və çoxtərəfli əlaqələrin gücləndirilməsinin vacibliyini qeyd etmişdir.

Sonra qarşılıqlı maraq doğuran digər məsələlərlə də bağlı fikir mübadiləsi aparılmış, bu cür səfərlərin Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında vergi sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi baxımından faydalı olduğu bildirilmişdir.

Görüşdə İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Möhsün Pak Ayin də iştirak etmişdir.

# Azərbaycanın vergilər naziri Argentinanın ölkəmizdəki yeni səfiri ilə görüşmüşdür



May ayının 15-də vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Argentina Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Karlos Dante Rivanı qəbul etmişdir. Yeni təyinatı münasibətilə cənab Karlos Dante Rivanı təbrik edən F.Məmmədov Azərbaycan iqtisadiyyatı və ölkəmizin vergi sistemi haqqında qonağa ətraflı məlumat vermiş, son illər ərzində əldə olunmuş uğurların əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş iqtisadi siyasətin dayandığını bildirmişdir. Sonra nazir Azərbaycanda reallaşdırılan vergi islahatları, vergi inzibatçılığı və informasiya texnologiyalarının tətbiqi, vergi ödəyicilərinə göstərilən elektron xidmətlər, elektron hökumət quruculuğu və elektron hökumətdən mobil hökumətə keçidlə bağlı Vergilər Nazirliyi tərəfindən görülən işlər barədə danışmışdır. O qeyd etmişdir ki, Azərbaycan Respublikası ilə Argentina Respublikası arasında həm dövlətlərarası, həm də vergi orqanları arasında əlaqələr inkişaf etməkdədir. 2012-ci ilin dekabr ayında Argentina Federal Gəlirlər Agentliyinin rəhbəri Rikardo Eçeqarayın Bakıya səfərini xatırladan F. Məmmədov həmin səfər zamanı vergi məlumatlarının mübadiləsi üzrə saziş imzalandığını bildirmişdir. Növbəti mərhələdə iki ölkənin vergi orqanları arasında praktiki əməkdaşlığın, o cümlədən vergi inzibatçılığı sahəsində mövcud olan müsbət təcrübələrin öyrənilməsi məqsədilə qarşılıqlı səfərlərin vacibliyi də qeyd edilmişdir.

Görüşdən məmnunluğunu ifadə edən cənab K.Dante Riva ölkəsinin Azərbaycanla əlaqələrə mühüm əhəmiyyət verdiyini, son illər ərzində yüksək səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil olunduğunu, mövcud əməkdaşlığın genişləndirilməsi üçün diplomatik fəaliyyəti dövründə səylə çalışacağını bildirmişdir. O, Azərbaycanla bir çox sahələrdə, o cümlədən kənd təsərrüfatı, informasiya texnologiyaları və neft sənayesi üzrə əməkdaşlığa hazır olduqlarını vurğulamışdır. Azərbaycan Respublikasının Vergilər Nazirliyinin nümayəndə heyətinin Argentinaya səfərinin qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi baxımından çox faydalı olacağını qeyd edən səfir bu istiqamətdə lazımi təşkilati işləri öz üzərinə götürməyə hazır olduğunu diqqətə çatdırmışdır.

Görüşdə iki ölkə arasında əməkdaşlığın potensialı və inkişaf imkanları üzrə fikir mübadiləsi aparılmışdır.

# Vergilər naziri Qubada şimal bölgəsindən olan vətəndaşları qəbul etmişdir

*Ölkə Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müraciətlərinə baxır və həllinə hərtərəfli köməklik edirlər. Qubada keçirilmiş növbəti belə görüşdə vergilər naziri Fazil Məmmədov Quba, Qusar, Xaçmaz, Şabran, Xızı və Siyəzən rayonlarından olan 50-dək vətəndaşı qəbul etmiş, onların müraciətlərini dinləmişdir.*

Qəbula gələnlər nazirə, əsasən, vergi sahəsində qarşılaşdıqları müxtəlif məsələlərlə bağlı müraciətlər etmiş, bununla əlaqədar onları narahat edən bəzi məsələlərin həllinə kömək göstərməyi xahiş etmiş, eləcə də vergi qanunvericiliyi sahəsində bir sıra dəyişikliklər edilməsinə dair təkliflər vermişlər.

Qəbul zamanı nazir vətəndaşlar tərəfindən qaldırılan məsələlərin həll edilməsi, hər bir şəxsin müraciətinin diqqətlə araşdırılması və qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturlara tapşırıqlar vermişdir. Vətəndaşların bir sıra müraciətləri yerindəcə həll edilmişdir. Digər məsələlərin də obyektiv şəkildə araşdırılacağı və konkret tədbirlər görüləcəyi bildirilmişdir.

Qəbula gələn vətəndaşlar yaradılmış şəraitdən razılıqlarını bildirmiş, ölkə Prezidentinin bu təşəbbüsünü alqışladıqlarını, belə qəbulların bir çox məsələlərin yerindəcə həllinə imkan yaratdığını vurğulamışlar.

# Təlimçilər üçün təlim

*May ayının 14-16-da Vergilər Nazirliyinin Tədris Mərkəzində Avstriya Federal Maliyyə Akademiyasının və yerli ekspertlərin iştirakı ilə nazirliyin əməkdaşlarına «təlimçilər üçün təlim» keçilmişdir.*

Üç gün davam edən tədbir çərçivəsində təlimin planlaşdırılması, strukturu, hədəf qrupları, təlim vasitələri və iş qrafiklərinin hazırlanması, təlim metodları və əks-əlaqənin təşkili, uğurlu təlimçi olmaq üçün tələb olunan əsas xüsusiyyətlər, təlim prosesinin təşkili və müfəssəl ssenarinin tərtib edilməsi, yazılı materialın planlaşdırılması, hazırlanması və tətbiqi, təlim modulları üçün oyunların hazırlanması və digər mövzular tədris olunmuşdur. Təlim prosesində yeni təlim metodları haqqında nəzəri biliklərlə yanaşı, «openspace» (açıq fəza) və «worldcafe» (beynəlxalq kafe) kimi təlim metodlarının praktiki tətbiqi nümayiş etdirilmişdir.

Tədbirin sonuncu günü avstriyalı qonaqlar Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinin fəaliyyəti ilə tanış olmuş, dinləyicilərə sertifikatlar təqdim edilmişdir.



# Bakı beynəlxalq sərgilərə hazırlaşır

*Mayın 22-dən 24-dək Bakı Ekspo Mərkəzində «İteca Caspian LLC» və «İTE Group PLC» şirkətlərinin təşkilatçılığı ilə «WorldFood Azerbaijan 2013» XIX Azərbaycan Beynəlxalq qida sənayesi, «Agri-Hort Azerbaijan 2013» VII Azərbaycan Beynəlxalq kənd təsərrüfatı və II Xəzər Beynəlxalq qablaşdırma, tara, etiket və poliqrafiya sərgiləri açılacaqdır.*

«AzərTAc»ın yaydığı xəbərə görə, bu barədə mayın 21-də Bakıda sərgilərin açılışı ilə bağlı keçirilən mətbuat konfransında Azərbaycan kənd təsərrüfatı nazirinin müavini İlham Quliyev məlumat vermişdir.

Nazir müavini diqqətə çatdırmışdır ki, XIX Azərbaycan Beynəlxalq qida sənayesi sərgisində dünyanın 31 ölkəsindən 179 şirkət iştirak edəcəkdir. Ənənəvi sərgidə MDB ölkələri və Avropadan olan şirkətlər üstünlük təşkil edir. Sərgiyə kommersiya təşkilatları ilə yanaşı, ilk dəfə olaraq Latviya, Belçika və İranın milli qrupları da qatılacaqlar.

«Agrihort Azerbaijan 2013» sərgisi kənd təsərrüfatı məhsullarının iri istehsalçıları və təchizatçılarını bir yerə toplayacaqdır. Burada Azərbaycan, Bolqarıstan, Macarıstan, Almaniya, İspaniya, İtaliya, Hollandiya, Rusiya, Ukrayna, Fransa və digər ölkələrin şirkətlərinin məhsul və xidmətləri təqdim olunacaqdır.

Tədbirdə vurğulanmışdır ki, II Xəzər Beynəlxalq qablaşdırma, tara, etiket və poliqrafiya sərgisində qablaşdırma, qablaşdırma materialları və hazır məmulat üçün qablaşdırma maşınları və avadanlıq nümayiş etdiriləcəkdir.

«İTE Group PLC» şirkətinin icraçı direktoru Edvard Stroon bildirmişdir ki, sərgilərdə iştirak edən şirkətlərin sayı ilbəil artır. Azərbaycanın yerli şirkətlərinin də sərgidə fəallığının artması sevindirici haldır. Belə ki, bu il bütün sərginin sahəsinin üçdə bir hissəsini Azərbaycanın yerli şirkətləri tutur.

# Əməkdaşlığa dair saziş imzalanacaq

*Azərbaycan Sığortaçılar Assosiasiyası İctimai Birliyinin (ASA) təşkilatçılığı və Maliyyə Nazirliyinin dəstəyi ilə iyunun 20-21-də keçiriləcək IV Azərbaycan Beynəlxalq Sığorta Forumuna hazırlıqlar davam edir.*

ASA-dan bildirilmişdir ki, tədbirdə Azərbaycanla yanaşı Rusiya, Ukrayna, Rumıniya, Bolqarıstan, Gürcüstan, Avstriya, Türkiyənin sığorta və təkrarsığorta sahəsində ixtisaslaşmış aparıcı ekspertləri, Dünya Bankının, Avropanın ən iri təkrarsığorta şirkətlərinin nümayəndələri iştirak edəcəklər.

Ekspertlər həyat, tibbi, kənd təsərrüfatı və avtomobil sığortaları mövzularında təqdimatlar edəcəklər. Forumda Rusiyanın «Kənd Təsərrüfatı Sığortaçılarının Milli İttifaqı» ilə ASA arasında qarşılıqlı əməkdaşlığa dair saziş imzalanacaqdır.

# Vergilər Nazirliyi ən müasir təlim metodları tətbiq edir



*Yohannes Buhl: «Bu gün IOTA-nın yüksək qiymət verdiyi ən müasir və tədris üçün bütün tələblərə cavab verən mərkəzləşdirilmiş üç böyük elm və təhsil müəssisəsindən biri Azərbaycanın Tədris Mərkəzidir»*

*Avstriya Federal Maliyyə Akademiyasının təlim üzrə ekspertləri Yohannes Buhl və Stefan Fersterer Vergilər Nazirliyinin Şamaxı rayonundakı Tədris Mərkəzində insan resurslarının idarə olunması sahəsində üçgünlük təlim kursu aparmışdır. Kursun məqsədi insan resurslarının inkişafı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, ən qabaqcıl təlim metodlarının tətbiqi imkanlarının araşdırılması, gələcəkdə bu sahədə təlimçilər komandasının yaradılması olub. Maliyyə Akademiyasının elektron xidmətlər üzrə təlim meneceri Yohannes Buhlun «Vergilər» qəzetinə müsahibəsi də bu mövzudadır.*

***- Cənab Buhl, vergi sistemində təlimlər hansı rolu oynayır, bunun əhəmiyyəti nədən ibarətdir?***

- Bu gün Avropada vergi administrasiyalarının qarşısında duran əsas strateji məqsədlərdən biri tədrisin və təlim prosesinin keyfiyyətinin artırılmasıdır. Vergi sistemi üçün hazırlanan kadrların davamlı olaraq zəruru biliklər, tətbiq olunan yeniliklər barədə məlumat alması başlıca şərtdir. Dünya ölkələrinin bir çoxunun vergi administrasiyalarındakı problemlərin kökündə insan resurslarının inkişafının lazımi səviyyədə olmaması dayanır. Vergi sektoru dinamik, daim yeniləşən, müasir tələblərə uyğunlaşan, ölkənin iqtisadi inkişafından asılı olaraq təkmilləşən sahədir, ona görə də bu proseslərin fonunda kadrların müntəzəm şəkildə bilik və təcrübəsinin artırılması qaçılmazdır. Avstriya hökuməti bu məsələyə böyük diqqət yetirir və bizim vergi administrasiyamızın tərkibində fəaliyyət göstərən Maliyyə Akademiyası insan resurslarının inkişafı sahəsində ixtisaslaşmış müəssisədir. Akademiyanın konsepsiyasının müəyyən olunmasında bir çox ölkələrdəki vergi tədrisi üzrə təlim modullarından yararlanmışıq.

Azərbaycanın vergi siyasətində kadr potensialının hazırlanması, təhsildə innovativ formaların, dövlət vergi orqanı əməkdaşlarının peşəkar inkişaf fəaliyyətinə yardım edən müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, davamlı təhsil və tədris, yeni təyin olunanlar üçün ilkin hazırlıq və ixtisasartırma kurslarına mühüm yer verilir. Missiyamızın məqsədi Azərbaycanda vergi tədrisi sahəsində Avropanın qabaqcıl təlim metodlarını, təlimçilər üçün tədrisin yeni formalarını tətbiq etmək, qarşılıqlı təcrübə mübadiləsi aparmaq idi. Təlimlər zamanı hər iki tərəf maraqlı təşəbbüslər irəli sürdü. Biz təlim prosesində bir sıra təklif və tövsiyələrlə çıxış etdik.

***- Təlimlə bağlı əsas təklifləriniz nədən ibarətdir?***

- Təlim prosesinin təkmilləşdirilməsi, tədrisin təşkil olunmasında yeni standartların hazırlanması və tətbiqi, yeni təlim materiallarının hazırlanması, tədrisin keyfiyyətinin yüksəldilməsi, bu prosesdə modern tədris alətlərindən və media vasitələrindən istifadə olunması yeni tələblər sırasındadır. Kadrların hazırlanması və inkişafı, vəzifələrin icrasında keyfiyyətin və səmərəliliyin təmin edilməsi, təlimin müasir formada təşkil olunması və biliklərin genişləndirilməsi Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) əsas iş proqramına daxıldır. Hesab edirəm ki, təlim-tədris prosesində yeni strateji istiqamətləri və yanaşmaları tətbiq etmək, informasiya texnologiyalarının rolunu artırmaq, sosial şəbəkələrdən istifadəni genişləndirmək lazımdır. Ümumiyyətlə, təlimin elektronlaşdırılmasına geniş yer verilməlidir. Hər bir ölkənin vergi administrasiyası öz tədris mərkəzləri ilə xarici tədris mərkəzləri arasında əlaqələrin möhkəmləndirilməsini əsas məqsədlərdən hesab etməlidir.

***- Azərbaycanın vergi sistemində tədrisin keyfiyyəti barədə nə qənaətə gəldiniz? Şamaxıdakı Tədris Mərkəzinin maddi-texniki bazasını, tədris infrastrukturunu necə qiymətləndirərdiniz?***

- Müşahidələrimizə əsasən deyə bilərəm ki, Şamaxıdakı Tədris Mərkəzi güclü infrastruktur imkanlarına, avadanlıqlara, beynəlxalq standartlara cavab verən innovativ vasitələrə malikdir. Bu gün IOTA-nın yüksək qiymət verdiyi ən müasir və tədris üçün bütün tələblərə cavab verən mərkəzləşdirilmiş üç böyük elm və təhsil müəssisəsindən biri Azərbaycanın Tədris Mərkəzidir. Burada vergi orqanı əməkdaşlarının tədrisi və ixtisaslarının artırılması, işgüzar dairələrin iştirakilə faydalı müzakirələrin aparılması, təlimlərin ən yüksək səviyyədə keçirilməsi üçün hər bir şərait var. Seminar zallarına geniş bir təlimçi auditoriyasını cəlb etmək mümkündür. Müəssisədəki şərait təlimlərin interaktivliyini təmin etməyə, onlayn tədris prosesini artırmağa imkan verir. İnanıram ki, Tədris Mərkəzi yalnız Azərbaycanın deyil, regionun digər ölkələrinin də vergi administrasiyaları üçün təcrübə və bilik mənbəyi olacaqdır.

***- Avstriya mütəxəssisləri insan resurslarının idarə olunması ilə bağlı təlimlərin təşkilinə və təlim prosesinə yeni metodlarla bağlı nə kimi töhfələr verə bilər?***

- Azərbaycanda vergi sisteminin yüksək inkişafı təlim prosesinə yeni yanaşma tələb edir. Treninqlərin və digər interaktiv tədris formalarının həm kəmiyyət, həm də keyfiyyət baxımından artırılması vacibdir. Təlimlərdə dinləyicilər üçün liderlik, motivasiya, qiymətləndirmə, müstəqil düşünmək, qərar qəbul etmək bacarığı, riskləri idarə etmək qabiliyyəti kimi meyarlara xüsusi diqqət yetirmək lazımdır. Tədris prosesində interaktivliyin rolunu artırmaq, müasir tədris resurslarından istifadə etmək, videokursların, onlayn tədrisin gücləndirilməsi barədə müzakirələr apardıq və bu istiqamətdə əməkdaşlıq haqqında razılıq əldə etdik. Hesab edirəm ki, vergi işçiləri ilə yanaşı, ödəyicilərin, sahibkarların da təlim və tədris prosesinə cəlb olunması genişləndirilməlidir.

Bu səfərimiz hər iki ölkənin tədris müəssisələri arasında sıx əməkdaşlığın qurulması üçün vasitə oldu. Yaxın vaxtlarda Avstriyanın Maliyyə Akademiyası ilə Şamaxı Tədris Mərkəzi arasında Anlaşma Memorandumu imzalanacaq. Bu bizə tədrisin müxtəlif formaları barədə daha böyük həyətlə təlimlər keçməyə imkan verəcək. Gələcəkdə təlim proqramlarında sahibkarların informasiya-kommunikasiya texnologiyaları sahəsində biliklərinin artırılmasına yardım etmək, sahibkarların peşə biliklərinə marağının və regionda məşğulluğun inkişafına kömək məqsədilə peşə kurslarının təşkili kimi tədbirləri də həyata keçirmək planlarımız var.

***- Avstriya Respublikasının Federal Maliyyə Nazirliyi ilə Azərbaycanın Vergilər Nazirliyi arasında vergi inzibatçılığı və informasiya texnologiyalarının tətbiqi sahəsində əməkdaşlığı necə qiymətləndirərdiniz?***

- Astriya və Azərbaycan arasında iqtisadi sahədə, o cümlədən vergi sistemində əlaqələr son illər xeyli inkişaf edib. Dövlətlər arasında investisiyaların təşviqi, gəlirlərə və əmlaka görə ikiqat vergitutmanın aradan qaldırılması, digər sahələr üzrə çox vacib sənədlərin imzalanması bu münasibətlərin daha da inkişaf etməsinə səbəb olub. Biz elektron ödənişlər sahəsində bir-birimizin təcrübəsini öyrənməkdəyik, bununla yanaşı, yeni informasiya texnologiyaları ilə bağlı qarşılıqlı mübadilənin gücləndirilməsi də zəruridir. Azərbaycanda vergi inzibatçılığı sahəsində ən yaxşı təcrübə mübadiləsində fəal iştirak edən və sürətli inkişaf yolunda olan vergi administrasiyalarından biri yaradılıb. Etiraf edim ki, Azərbaycanın vergi sistemi Avstriya ilə müqayisədə bir qədər irəlidədir, vergi gəlirlərinin yığılmasında yüksək səriştə, vergi ödəyicilərinə göstərilən xidmətlərin peşəkar standartlara çatdırılması, vergi öhdəliyinin yerinə yetirilməsi sahəsində istənilən həll variantlarının dəstəklənməsi bizim üçün böyük maraq doğurur və bu təcrübənin mənimsənilməsi fikrindəyik. Bizim ölkədə internetlə ödəmə mövcuddur, amma mobil ödəmə tətbiq olunmur, Azərbaycan isə artıq mobil ödəniş sistemindən də istifadə etməyə başlayıb.

**Elbrus CƏFƏRLİ**

# Bankların konsolidasiyası təşviq edilir

*Azərbaycan Mərkəzi Bankının (AMB) kommersiya banklarının nizamnamə kapitalının minimumuna tətbiq olunan tələbi 10 milyon manatdan 50 milyon manata qaldırması ilə bağlı qərarının icrası istiqamətində addımlar atılır. Artıq bəzi banklar 2014-cü il yanvarın 1-dək nizamnamə kapitalının artırılması ilə bağlı qərar qəbul etmişlər. Bununla belə, bir sıra iqtisadçı ekspertlər bəzi bankların ilin sonunadək bu qərarı icra etmək imkanında olmadıqlarını bildirirlər.*

Məsələ ilə bağlı qəzetimizə açıqlama verən AMB-nin sədr müavini Aftandil Babayev demişdir ki, bank sektorunun maliyyə sabitliyinin gücləndirilməsinə, korporativ idarəetmə sisteminin inkişafına, habelə əmanətçilər və investorların maraqlarının qorunmasına yönəlmiş strategiya çərçivəsində bankların kapitalına kəmiyyət və keyfiyyət tələbləri artırılmışdır. O bildirmişdir ki, bu tədbirlərin nəticəsi olaraq, bankların kapitalizasiyası yeni keyfiyyət səviyyəsinə yüksəlmiş, maliyyə dayanıqlığı göstəriciləri yaxşılaşmışdır. Formalaşmış əhəmiyyətli kapital bazası bank sektoruna 2008-ci ildə başlanmış qlobal maliyyə böhranını hazırlıqlı və möhkəm sabitlik yastığı ilə qarşılamağa imkan vermişdir: «Bank sisteminə etimadın qorunması, sistem risklərinin minimallaşdırılması, banklarda idarəetmə potensialının gücləndirilməsi və maliyyə dayanıqlığının artırılması istiqamətində tədbirlər davam etdirilir».

Aftandil Babayev 2012-ci ilin bank sektorunun sabitliyinin qorunması, institusional inkişafının sürətlənməsi və maliyyə vasitəçiliyinin dərinləşməsi ilə səciyyəvi olduğunu qeyd etmişdir. Bildirmişdir ki, bütün bunlar, həmçinin, bank sisteminin maliyyə dayanıqlığının artırılması zərurəti nəzərə alınaraq, banklara qarşı kapital tələbini yüksəltmişdir: «Fəaliyyətdə olan bankların məcmu kapitalının, habelə yeni yaradılan banklar üçün nizamnamə kapitalının minimum məbləğinin 50 milyon manatadək artırılması barədə qərar yeni inkişaf mərhələsinin tələblərindən irəli gəlir. Təhlillər göstərir ki, bank sektorunun aktivlərinin 89%-nə malik bankların kapitalının həcmi bu tələbə uyğundur. Yeni kapital tələblərinin tətbiqi bankların kapital mövqeyinin möhkəmlənməsi ilə yanaşı, maliyyə vasitəçiliyinin effektivliyinin və dərinliyinin artırılmasına imkan verəcəkdir».




AMB-nin sədr müavini vurğulamışdır ki, çevik makroiqtisadi siyasət, o cümlədən Mərkəzi Bankın pul siyasəti nəticəsində 2012-ci ildə qiymətlərin sabitliyi qorunmuş, inflyasiya birrəqəmli səviyyədə olmuşdur. Bank sektorunda maliyyə sabitliyi və dayanıqlıq təmin edilmiş, sektorun iqtisadiyyatda maliyyə vasitəçiliyi rolu yüksəlmişdir. Bildirilmişdir ki, bank sisteminin inkişafının keyfiyyətcə yeni mərhələsində maliyyə vasitəçiliyinin genişləndirilməsi, qlobal maliyyə bazarlarına inteqrasiya, bank xidmətlərinin yeni keyfiyyətini təmin etmək üçün bankların kapitalizasiyasının davam etdirilməsi zəruridir. Bankların kapital bazasının gücləndirilməsi sektora olan etimadın artırılması, bankların beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. A.Babayev hesab edir ki, bu, iqtisadi subyektlərin maliyyə xidmətlərinə çıxış imkanlarının artırılmasına, bank xidmətlərinin çeşidinin genişlənməsinə və dəyərinin ucuzlaşmasına təkan verəcək, maliyyə bazarlarının, xüsusən də banklararası bazarın inkişafına pozitiv təsir göstərəcəkdir.

Mərkəzi Bankın 2013-cü il üçün bəyan etdiyi pul siyasətinə adekvat olaraq bankların konsolidasiyasını təşviq etdiyini deyən Aftandil Babayev bildirmişdir ki, məqsəd bankların iqtisadi inkişaf prosesində rolunun, habelə rəqabətə davamlılığının yüksəldilməsidir: «Artıq bir sıra banklar nizamnamə kapitallarını artırmaq məqsədilə öz emissiya prospektlərini bəyan etmişlər. Qısa müddətdə nizamnamə kapitalını 50 milyon manata çatdıran banklar da var. Ümumiyyətlə, Mərkəzi Bankın qərarı bankların qarşısında üç yol müəyyənləşdirir: birincisi - kapitallaşma, ikincisi - birləşmə və ya bank olmayan kredit təşkilatına çevrilmə, üçüncüsü - bazardan çıxmaq. Hesab edirik ki, bəzi bankların bank olmayan kredit təşkilatına çevrilməsi üçün qanunvericikdə müəyyən dəyişikliklərin edilməsinə ehtiyac vardır və bu istiqamətdə iş aparılır».

**S.MUSTAFAYEV**



Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

## Rakurs

# Elmi fəaliyyətə vergi stimulları

Azərbaycanda sahibkarlıq fəaliyyətinin, o cümlədən elm sahəsində (elmi tədqiqat, innovasiya, layihə-axtarış, təcrübə-konstruktor işləri, yüksək texnologiyaların yaradılması və s.) görülən işlərin və göstərilən xidmətlərin vergiyə cəlb olunması məsələləri Vergi Məcəlləsi ilə tənzimlənir. Elmi fəaliyyət zamanı meydana çıxan vergitutma obyektlərindən müvafiq vergilər Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada hesablanıb dövlət büdcəsinə ödənilir.

Elmi fəaliyyətin inkişaf templərinin sürətləndirilməsində mühüm rolu nəzərə alınaraq, bu sahənin inkişafına əlverişli iqtisadi şəraitin yaradılması məqsədilə Vergi Məcəlləsində bir sıra vergi güzəşti və azadolmaları nəzərdə tutulmuşdur. Məcəllənin 113-cü maddəsinə əsasən, gəlir götürmək məqsədi ilə aparılan elmi tədqiqat, layihə-axtarış və təcrübə-konstruktor işlərinə çəkilən xərclər (əsas vəsaitlərin alınması və qurulması ilə bağlı xərclər, habelə kapital xarakterli digər xərclər istisna olmaqla) məhdudiyyət qoyulmadan gəlirdən çıxılan xərclərə aid edilir.

*Elmi fəaliyyət zamanı meydana çıxan vergitutma obyektlərindən müvafiq vergilər Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada hesablanıb dövlət büdcəsinə ödənilir*

İnnovativ və elmtutumlu yüksək texnologiyaların yaradılmasında mühüm rol oynayan sənaye və texnologiya parklarının inkişafına əlverişli iqtisadi şəraitin yaradılması məqsədilə 1 yanvar 2013-cü il tarixdən Vergi Məcəlləsində həmin sahələr üçün mənfəət (gəlir), əmlak, torpaq vergiləri və ƏDV üzrə bir sıra güzəşt və azadolmalar nəzərdə tutulmuşdur.

Elmi-texniki inkişaf üçün çox böyük əhəmiyyətə malik güzəşt və azadolmalarla yanaşı, təhsil xidməti ilə bağlı Vergi Məcəlləsində nəzərdə tutulmuş vergi azadolmaları da elmi-texniki fəaliyyətin dəstəklənməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bunlara ödənişli təhsil xidmətlərinin ƏDV-yə cəlb olunmaması və təhsil sahəsində istifadə edilən əmlakların əmlak vergisindən azad olunması aiddir.

Beynəlxalq təcrübədə elmi fəaliyyətə vergi güzəştləri müxtəlif formalarda verilir. Misal üçün, Rusiya Federasiyasının Vergi Məcəlləsinə əsasən, aşağıdakılar ƏDV-dən azad edilir:

- büdcə vəsaitləri, habelə Rusiyanın fundamental tədqiqatlar, texnoloji inkişaf fondlarının, nazirliklərinin, dövlət müəssisələri və birliklərinin büdcədənkənar fondlarının vəsaitləri hesabına elmi tədqiqat və təcrübə-konstruktor işlərinin həyata keçirilməsi;
- təhsil və elm müəssisələrinin təsərrüfat müqavilələri əsasında tədqiqat və araşdırma işlərinin həyata keçirilməsi;
- tədqiqat və araşdırma işlərinin həyata keçirilməsi zamanı yeni məhsul və texnologiyaların yaradılması, yaxud məhsulların istehsalı və texnologiyaların təkmilləşdirilməsi.

Bunlarla yanaşı, Rusiyada fəaliyyət göstərən «Skolkova» İnnovasiya Mərkəzinin rezidenti olan şəxslər bütün vergilərdən azad edilmişdir.

Amerika Birləşmiş Ştatlarında innovasiyaların inkişafı üçün yaradılmış ilk texnoloji park olan «Silikon vadisi»ndə fəaliyyət göstərən şəxslərin stimullaşdırılması məqsədilə fiziki şəxslərin satış dövriyyələrinin 1 milyon dollara qədər, hüquqi şəxslərin isə 20 milyon dollara qədər olan hissəsi satış vergisindən azad edilir. Bundan əlavə, burada fəaliyyət göstərən müəssisələrdə işçi qüvvəsinin cəlb olunmasına çəkilən xərclərin 50%-i kompensasiya olunur və onların gəlirləri vergiyə cəlb edilmir.

Çin Respublikasının vergi qanunvericiliyinə görə, elmi-texniki inkişafa çəkilmiş xərclər tam məbləğdə və əlavə olaraq bu xərclərin 50%-ə qədəri vergitutulan gəlirdən çıxılır. Bu da elmi-texniki fəaliyyətə investisiya qoyuluşlarının əsas mənbələrindən biri olan sərəncamda qalan mənfəətin artırılmasına imkan yaradır.

İngiltərədə iri müəssisələr elmi araşdırma və inkişaf üçün çəkilən xərcləri bütövlükdə və həmin xərclərin 30%-ni əlavə olaraq, kiçik və orta müəssisələr isə bu növ xərclərin tam məbləğini və onun 125%-ni əlavə olaraq gəlirdən çıxa bilər.

Bəzi xarici ölkələrin qanunvericiliyində elm sahəsində çəkilən xərclərə qarşılıq olaraq vergi ödəyicilərinə vergi kreditlərinin verilməsi nəzərdə tutulur. Misal üçün, Fransada elmi araşdırmalara il ərzində çəkilən xərclərin 30%-i həcmində vergi kreditləri verilə bilər. Vergi kreditlərinin verilməsi vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılmasını nəzərdə tutur ki, bu da dövlət xəzinəsinə ödənilməli vergi borclarından müəyyən müddət ərzində heç bir faiz ödəmədən istifadə etməyə imkan yaradır. Avstriyada universitetlərə, elm akademiyalarına və qeyri-kommersiya tipli elmi araşdırmaların aparılması, xüsusilə Avstriya elminin inkişafı üçün verilən yardımlar illik gəlirin 10%-dən çox olmamaqla gəlirdən çıxılan xərclərə aid edilə bilər. Eyni zamanda, bu ölkənin qanunvericiliyində elmi araşdırma məqsədilə maddi aktivlərə və qeyri-maddi aktivlərə qoyulan investisiyanın 8%-i həcmində vergi kreditinin verilməsi də nəzərdə tutulmuşdur.

Qeyd olunanlarla yanaşı, təcrübədə elm sahəsinin inkişafı üçün xüsusi vergi və ya yığımların da tətbiqinə rast gəlinir. Məsələn, Belarus Respublikasının qanunvericiliyinə əsasən, kənd təsərrüfatı elminin inkişafına və kənd təsərrüfatı istehsalçılarına kömək məqsədilə təşkilatlardan mal (iş, xidmət) təqdim olunmasından əldə edilən gəlirin 1%-i həcmində yığım tutulur.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

# İnzibati xəta

### İnzibati xəta barəsində inzibati tənbeh tədbiri hansı müddətə tətbiq olunur?

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (bundan sonra - Məcəllə) 12-ci maddəsində verilmiş «inzibati xəta» anlayışına görə, Məcəllə ilə qorunan ictimai münasibətlərə qəsd edən, hüquqazidd olan, təqsirli sayılan (qəsdən və ya ehtiyatsızlıq üzündən törədilən) və inzibati məsuliyyətə səbəb olan əməl (hərəkət və ya hərəkətsizlik) inzibati xəta hesab olunur.

Məcəllənin 32-ci maddəsində inzibati tənbeh tətbiqetmənin ümumi qaydaları göstərilmişdir. Həmin maddəyə əsasən, inzibati xətaya görə tənbeh Məcəlləyə əsasən tətbiq edilir və qeyd olunur ki, fiziki və ya vəzifəli şəxslər barəsində inzibati tənbeh tətbiq edilərkən xətanın xarakteri, inzibati xəta törədən şəxsin şəxsiyyəti, onun təqsirinin dərəcəsi, əmlak vəziyyəti, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar, hüquqi şəxslər barəsində inzibati tənbeh tətbiq edilərkən inzibati xətanın xarakteri, hüquqi şəxsin maliyyə və əmlak vəziyyəti, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar nəzərə alınır.

İnzibati xətalara görə məsuliyyətə cəlbetmə müddətləri isə Məcəllənin 36-cı maddəsində nəzərdə tutulmuşdur. Məcəllənin 36.1-ci maddəsinə əsasən, inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci iki ay keçənədək verilə bilər. Həmin maddədə bir qrup inzibati xətalara görə inzibati tənbehin inzibati xətanın törədildiyi gündən ən geci 1 il keçənədək verilməsi nəzərdə tutulmuşdur. Belə inzibati xətalara gömrük qaydaları, ətraf mühitin qorunması qaydaları, qrant müqavilələrinin (qərarlarının) qeydə alınması qaydaları, eləcə də maliyyə, vergilərin və rüsumların ödənilməsi qaydaları əleyhinə olan inzibati xətalar aiddir.

Həmin maddənin digər bəndlərinə əsasən, davam edən inzibati xətalara görə inzibati tənbeh onun aşkara çıxarıldığı, cinayət işinin başlanması rədd edildikdə və ya cinayət işinə xitam verildikdə, lakin şəxsin əməllərində inzibati xəta tərkibinin bütün əlamətləri olduqda, inzibati tənbeh cinayət işinin başlanmasının rədd edilməsi və ya ona xitam verilməsi haqqında qərar qəbul edildiyi, on altı yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın törətdiyi inzibati xəta haqqında iş yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq dövlət orqanına qaytarıldıqda inzibati tənbeh həmin iş qaytarıldığı gündən ən geci iki ay keçənədək verilə bilər.

Bundan əlavə, Məcəllənin xüsusi hissəsinin müvafiq fəsillərində ayrı-ayrı inzibati xətaların növləri, onların hər birinin törədilməsinə görə tətbiq edilən inzibati tənbehlər nəzərdə tutulmuşdur. Vergilərin, rüsumların ödənilməsi, maliyyə və sığorta qaydaları əleyhinə olan inzibati xətaların növləri və onlara mütənasib tətbiq edilən inzibati tənbehlər Məcəllənin iyirminci fəslində təsbit olunmuşdur. Məcəllənin 36.1-ci maddəsinə müvafiq olaraq, qeyd edilən fəsil ilə əhatə olunan vergilərin, rüsumların ödənilməsi, maliyyə qaydaları əleyhinə olan inzibati xətalara görə inzibati tənbeh tədbiri inzibati xətanın törədildiyi gündən ən geci 1 il keçənədək verilir.

Məcəllənin 36.2-ci maddəsinə əsasən, davam edən inzibati xətalara görə inzibati tənbeh onun aşkara çıxarıldığı gündən ən geci iki ay keçənədək verilə bilər.

# Vergi maarifçiliyi

May ayının 13-də vergilərlə bağlı biliklərin mənimsənilməsində yüksək nailiyyətlər əldə etmiş şagirdlərin stimullaşdırılması məqsədilə Tovuz rayonundakı M.Ələkbərov adına tam orta məktəbdə 14 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsində yerləşən Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonunun şagirdləri arasında vergilər mövzusuna həsr olunmuş bilik müsabiqəsi keçirilmişdir. 3 yaş qrupu üzrə 29 şagirdin iştirak etdiyi müsabiqənin sonunda qaliblərə diplomlar və qiymətli hədiyyələr təqdim olunmuşdur.




# Sənaye texnoparkları dövlətin diqqət mərkəzindədir

### Vergilər Nazirliyinin xətti ilə büdcəyə qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının həcmi ildən-ilə artır

*Azərbaycan hökumətinin qarşısında duran əsas məsələlərdən biri karbohidrogen ehtiyatlarından asılılığı aradan qaldırmaq və iqtisadi artımı qeyri-neft sektorunun, o cümlədən onun tərkib hissəsi olan sənaye sektorunun hesabına təmin etməkdir. Dövlət investisiya siyasətində əsas istiqamətlərdən biri də sənaye şəhərciyi infrastrukturunun formalaşdırılması ilə bağlıdır. Sumqayıtda Kimya Sənayesi Parkının, Yüksək Texnologiyalar Parkının və Balaxanı Sənaye Parkının yaradılması bu istiqamətdə atılmış ilk addımlardandır. Sənaye texnoparklarının ərazisində yaradılan müəssisələrin əsas profili ixracyönümlü iqtisadiyyatın stimullaşdırılmasına xidmət etmək olacaq: ölkəmiz beynəlxalq standartlara cavab verən rəqabətqabiliyyətli sənaye məhsullarını dünya bazarına ixrac etməklə valyuta gəlirlərini artıracaq. Yeni sənaye mərkəzlərinə yerli və xarici investorların cəlb edilməsi üçün ölkədə daha əlverişli biznes imkanları yaradılır.*



#### Sənaye və texnologiya parkları üçün vergi güzəştləri

Dövlət öz maliyyə dəstəyini gücləndirməklə yanaşı, xarici investorlar üçün bir sıra güzəştli şərtlər tətbiq etməyi də nəzərdə tutur. İlk növbədə, yaxın və uzunmüddətli perspektivdə texnoparkların inkişafını stimullaşdırmaq üçün ölkənin vergi qanunvericiliyində sənaye və texnologiyalar parkında çalışan fiziki və hüquqi şəxslərə vergi güzəştləri tətbiq ediləcək. Qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi istiqamətində ölkə başçısının verdiyi tapşırıqların icrası ilə əlaqədar respublika ərazisində yaradılan sənaye və texnologiya parklarının, onların idarəedici təşkilatının və operatorunun müddətsiz, bu cür parklarda fəaliyyət göstərən rezident hüquqi şəxslər və fərdi sahibkarlar isə 7 il müddətinə bütün birbaşa vergiləri ödəməkdən azad edilmişdir. Nazirlər Kabinetinin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında vergilər naziri Fazil Məmmədov bildirmişdir ki, ölkə başçısının iradəsi ilə edilən bu dəyişikliklər xarici və yerli investorlar arasında böyük rezonans doğurmaqla innovativ istehsal və informasiya texnologiyalarının inkişafını sürətləndirəcək, bu sahədə qabaqcıl təcrübənin iqtisadiyyatda tətbiqinə geniş şərait yaradacaqdır.

#### Qeyri-neft sektorundan vergi daxilolmalarının həcmi artır

Sənayenin inkişafının innovasiyalar əsasında təmin olunması, texnoparkların sənayeləşmədə strateji layihələr kimi yer alması Prezident İlham Əliyevin təsdiqlədiyi «Azərbaycan 2020 - gələcəyə baxış» İnkişaf Konsepsiyasında da başlıca hədəflər sırasındadır. Konsepsiyada qarşıya qoyulan hədəflərdən biri isə qeyri-neft sektorunda ümumi daxili məhsulun adambaşına düşən göstəricisinin iki dəfə artırılmasıdır. Yeri gəlmişkən, bu ilin yanvar-aprel aylarında Azərbaycanda 17,2 mlrd. manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,8% çox ÜDM istehsal edilmişdir. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ilin ilk dörd ayı ərzində qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər əvvəlki ilin eyni dövrü ilə müqayisədə 10,9% artmış, onun ÜDM-də xüsusi çəkisi isə 51,5% təşkil etmişdir.

Ölkənin sənaye sahələrində 2013-cü ilin yanvar-aprel aylarında 11,3 mlrd. manatlıq məhsul istehsal olunmuş və xidmətlər göstərilmiş, sənayenin qeyri-neft sahələrində 2,8% artım müşahidə olunmuşdur.

İqtisadi İnkişaf Nazirliyinin məlumatına görə, Azərbaycanda sənaye məhsulunun həcmi 2005-ci illə müqayisədə 2011-ci ildə 9 mlrd. 309 mln. manatdan 35 mlrd. 027 mln. manatadək, yəni təxminən 3,7 dəfəyədək artmışdır. Mülkiyyət formalarına nəzər salsaq, həmin dövrdə dövlət sektorunda 1,4 dəfə, özəl sektorda isə 4,3 dəfə artım olmuşdur.

***Cari ilin yanvar-aprel aylarında Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2 mlrd. 513 mln. 825,7 min manat təşkil etmişdir ki, bunun da 1 mlrd. 224 mln. 932,2 min manatı qeyri-neft-qaz sektorunun payına düşmüşdür.***

***Ötən il isə Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 6 mlrd. 25 mln. 504,6 min manat təşkil etmişdir ki, bunun da 3 mlrd. 286 mln. 647,8 min manatı qeyri-neft-qaz sektorunun payına düşmüşdür. Bu göstərici 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 14,5% çoxdur.***

#### 2013-cü il qeyri-neft sektorunun inkişafında rekord ili olacaq

Əsas məqsədin qeyri-neft sektorunun, qeyri-neft sənayesinin inkişaf etdirilməsi olduğunu deyən Prezident İlham Əliyev bildirmişdir ki, Azərbaycanda sənayeləşmə prosesi sürətlə getməlidir: «Yaradılan və yaradılmaqda olan yeni sənaye müəssisələri bizim uzunmüddətli inkişaf strategiyamızı müəyyən edəcəkdir. Azərbaycan dövləti öz üzərinə düşən bütün vəzifələri artıqlaması ilə icra edir. Azərbaycandakı kimi özəl sektora dəstək, bəlkə, heç bir ölkədə yoxdur. Bu, ilk növbədə, siyasi dəstəkdir».

Göründüyü kimi, bu sahəyə qoyulan və qoyulacaq investisiyalar, eləcə də sahibkarlıq fəaliyyəti dövlət tərəfindən daim dəstəklənir. Nazirlər Kabinetinin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Prezidenti İlham Əliyev qeyri-neft sektorunun inkişafının 11,4% təşkil etdiyini diqqətə çatdıraraq, 2013-cü ilin iqtisadiyyatın qeyri-neft sektorunun inkişafında rekord ili olacağını vurğulamışdır. 2020-ci ilədək olan dövr ərzində isə Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı prioritet istiqamətlərdən olacaq.

**Rəşad SADIQOV**

# İnteraktiv vergi xidmətləri

*Vergilər Nazirliyinin göstərdiyi elektron xidmətlər barədə təlimat səciyyəli silsilə yazıları davam etdiririk.*

#### Vergi odəyicisinin təsərrüfat subyektinin fəaliyyətinin onlayn dayandırılması

Vergilər Nazirliyi tərəfindən təqdim edilən bu xidmətdən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirilmə nömrəsini almış şəxslər istifadə edirlər. Xidmət www.e-taxes.gov.az, http://www.e-gov.az ünvanında ödənişsiz aparılır. Bu xidmətin göstərilməsi üçün vergi ödəyicisinin təsərrüfat subyektinin fəaliyyətinin dayandırılması barədə ərizə tələb olunur. Yuxarıda qeyd edilən elektron ünvandan ərizədə olan məlumatlar interaktiv şəkildə istifadəçi tərəfindən sistemə daxil edilməlidir. Xidmətdən istifadə etmək üçün istifadəçilərin Vergilər Nazirliyi tərəfindən verilən şifrəsi, parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olduqda istifadəçiyə təklif olunan ərizə formasını doldurmaq və təsdiq etmək imkanı yaranır.

Ərizə iş vaxtı başa çatdıqdan sonra və ya qeyri-iş günündə sistemə daxil edilmişdirsə, onun icrası həmin gündən sonrakı ilk iş gününün əvvəlində həyata keçirilir.

Vergi ödəyicisinin təsərrüfat subyektinin elektron formada fəaliyyətinin dayandırılması ərizəsi İnternet Vergi İdarəsi portalının «Onlayn kargüzarlıq» bölümü üzərindən işlənilir. Bu məqsədlə *«Yeni müraciət»* düyməsi sıxılır və açılan pəncərədə:

- «Kimə» siyahısından - Vergilər Nazirliyi;
- «Müraciətin növü» siyahısından - Ərizə;
- «Sənədin növü» siyahısından - Obyektin fəaliyyətinin dayandırılması ərizəsi seçilir və *«Qəbul»* düyməsi sıxılır.

Açılan ekranda əməliyyatlar aşağıdakı ardıcıllıqla yerinə yetirilir:

- təsərrüfat subyektinin kodu seçilir;
- fəaliyyətin və əməliyyatın dayandırıldığı tarix daxil edilir;
- fəaliyyətin və əməliyyatın bərpa ediləcəyi tarix daxil edilir;
- fəaliyyətin dayandırıldığı dövrdə muzdlu işçilərə əməkhaqqı ödənilib-ödənilməməsi seçilir və *«İrəli»* düyməsi sıxılır.

Sonra daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir.

İstifadəçi məlumatların doğruluğuna əmin olduqda, onu təsdiqləmək üçün *«Qəbul»* düyməsini sıxır. Əks halda, imtina etmək üçün *«İmtina»* düyməsi icra edilir.

Ərizə məlumatları sistemə daxil edilərək istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və ona 16-rəqəmli qeydiyyat nömrəsi verilir. Onlayn rejimdə təsərrüfat subyektinin fəaliyyətinin dayandırılması barədə təqdim edilmiş ərizə üzrə məlumatlar AVİS-ə daxil edilmədiyi halda, vergi ödəyicisi tərəfindən növbəti fəaliyyətin dayandırılması ərizəsinin qeydiyyata alınmasına məhdudiyyət qoyulmuşdur. Bundan əlavə, vergi ödəyicisi tərəfindən kəsişən dövrlər üzrə təsərrüfat subyektinin fəaliyyətinin dayandırılması ərizələri təqdim edilə bilməz. Bu məsələlərə sistem tərəfindən avtomatik nəzarət olunur və ekrana müvafiq mesajlar çıxarılır.

İmtinaya əsas olmadıqda vergi ödəyicisinin təsərrüfat subyektinin fəaliyyəti dayandırılır. Daxil edilən məlumatların informasiya sistemində emalı müddətindən asılı olaraq, elektron xidmət yerinə yetirilir.

Xidmətin yerinə yetirilməsi nəticəsində vergi ödəyicisinin təsərrufat subyektinin fəaliyyəti ərizədə göstərilən müddətə dayandırılır.

#### Vergi ödəyicisinin təsərrüfat subyektinin fəaliyyətinin onlayn bərpası

Bu xidmətdən istifadə edildikdə vergi ödəyicisinin təsərrüfat subyektinin fəaliyyəti onlayn formada bərpa edilir. Vergi ödəyicisinin təsərrüfat fəaliyyəti bərpa ediləndən sonra bu barədə müraciət edənin elektron ünvanına Bildiriş göndərilir. Bildirişdə fəaliyyətin hansı tarixdən bərpa olunduğu gostərilir.

Xidmətin təqdim olunma yeri, istifadəçiləri yuxarıda qeyd edilən xidmətdə olduğu kimidir. Bu xidmətin göstərilməsi üçün vergi ödəyicisinin təsərrüfat subyektinin fəaliyyətinin bərpa edilməsi barədə ərizə tələb olunur. Xidmətin təqdim edildiyi elektron ünvandan ərizədə olan məlumatlar interaktiv şəkildə istifadəçi tərəfindən sistemə daxil edilir.

Vergi ödəyicisinin təsərrüfat subyektinin elektron formada fəaliyyətinin bərpası ərizəsi İnternet Vergi İdarəsi portalının «Onlayn kargüzarlıq» bölümü üzərindən işlənilir. Bu məqsədlə *«Yeni müraciət»* düyməsi sıxılır və açılan pəncərədə:

- «Kimə» siyahısından - Vergilər Nazirliyi;
- «Müraciətin növü» siyahısından - Ərizə;
- «Sənədin növü» siyahısından - Obyektin fəaliyyətinin bərpası ərizəsi seçilir və *«Qəbul»* düyməsi sıxılır.

Açılan ekranda təsərrüfat subyektinin kodu seçilir, fəaliyyətin bərpa olunduğu tarix daxil edilir və *«İrəli»* düyməsi sıxılır.

Sonra daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir.

İstifadəçi məlumatların doğruluğuna əmin olduqda, onu təsdiqləmək üçün *«Qəbul»* düyməsini sıxır. Əks halda, imtina etmək üçün *«İmtina»* düyməsi icra edilir.

Ərizə məlumatları sistemə daxil edilərək istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və ona 16-rəqəmli qeydiyyat nömrəsi verilir.

Onlayn rejimdə fəaliyyətin bərpası barədə təqdim edilmiş ərizə üzrə məlumatlar AVİS-ə daxil edilmədiyi halda, vergi ödəyicisi tərəfindən növbəti fəaliyyətin bərpası ərizəsinin qeydiyyata alınmasına məhdudiyyət qoyulmuşdur. Bundan əlavə, bərpa tarixinin daxil olduğu hər hansı iki tarix arasında təsərrüfat subyektinin fəaliyyəti dayandırılmamışdırsa, bu halda fəaliyyətin bərpası ərizəsi təqdim edilə bilməz. Əgər vergi ödəyicisinin fəaliyyəti dayandırılmışdırsa, onun təsərrüfat subyektinin fəaliyyətin bərpası ərizəsi icraya qəbul olunmur. Bu məsələlərə sistem tərəfindən avtomatik nəzarət olunur və ekrana müvafiq mesajlar çıxarılır. İmtinaya əsas olmadıqda vergi ödəyicisinin təsərrüfat subyektinin fəaliyyəti bərpa olunur.

Daxil edilən məlumatların informasiya sistemində emalı müddətindən asılı olaraq, elektron xidmət yerinə yetirilir. Xidmətin yerinə yetirilməsi nəticəsində Vergi ödəyicisinin təsərrüfat subyektinin fəaliyyəti ərizədə göstərilən tarixdən bərpa edilir. Elektron xidmətin göstərilməsi zamanı aparılan proseslərə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir.

**AYTƏN**

FitchRatings

# Azərbaycanın kredit reytinqini sabit saxlayıb

*Regional prosesləri diqqət mərkəzində saxlayan dünyanın aparıcı maliyyə-iqtisadi qurumları, o cümlədən nüfuzlu reytinq agentlikləri hesabatlarında Azərbaycanı regionda yüksək investisiya cəlbediciliyinə və makroiqtisadi sabitliyə malik ölkə kimi səciyyələndirirlər. Bu günlərdə «Fitch Ratings» Beynəlxalq Reytinq Agentliyi Azərbaycanın suveren reytinqini ötənilki kimi, sabit proqnozla «BBB-» investisiya səviyyəsində təsdiqləyib. Agentlik bu qərarını ölkənin yüksək iqtisadi gəlirləri və strateji valyuta ehtiyatları, xarici borcunun aşağı səviyyəsi, eləcə də ümumi daxili məhsulun və qeyri-neft sektorunun artım tempi ilə izah edib.*

Azərbaycanın yerli və xarici valyutada yüksək investisiya cəlbediciliyinə malik olması hələ ötən ildən «Standart & Poor's», «Moody's İnvestors Services», «Fitch Ratings» reytinq agentliklərinin, o cümlədən Dünya İqtisadi Forumunun hesabatlarında əksini tapıb. Bir müddət əvvəl isə Asiya İnkişaf Bankı hesabatında 2013-cü ilin Azərbaycan üçün uğurlu nəticələrlə yaddaqalan olacağını açıqlayıb. Nəhayət, «Fitch Ratings»in bu günlərdə ötənilki reytinqini təkrar etməsi Azərbaycan üçün mühüm əhəmiyyətə malikdir: nüfuzlu reytinq agentliklərinin və maliyyə qurumlarının hesabatları respublika iqtisadiyyatına investisiya və kapital qoyuluşlarının strukturuna pozitiv təsir göstərən, xarici iqtisadi əlaqələri, müştərək biznes layihələrini stimullaşdıran əsas amillərdəndir. Bir qayda olaraq, yerli və əcnəbi biznes qurumları sərmayə yatırımları ilə bağlı qərar qəbul edərkən bu hesabatları ciddi şəkildə nəzərə alırlar.

Bəzi Avropa ölkələrinin qlobal maliyyə böhranının mənfi təsirləri ilə mübarizə apardıqları bir zamanda Azərbaycanın ötənilki investisiya reytinqinin təsdiqlənməsi həyata keçirilən davamlı islahatlar nəticəsində ölkənin iqtisadi qüdrətinin əhəmiyyətli dərəcədə güclənməsi və bunun beynəlxalq miqyasda etiraf kimi dəyərləndirilə bilər. Ötən il və 2013-cü ilin birinci rübündə qeyri-neft sektorunun 10-11% artması, konservativ büdcə siyasətinin yürüdülməsi, əhali gəlirlərinin yüksəlməsi, nəhayət, elektron xidmətlərin genişləndirilməsi nəticəsində biznes mühitinin liberallaşdırılması «Fitch Ratings»in Azərbaycanla bağlı qərarını şərtləndirən mühüm amillər sırasındadır.

Neft-qaz gəlirlərindən asılılığın ilbəil azaldılması məqsədilə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər son 2 ildə qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisinin artmasına səbəb olub. Rəqabətədavamlı istehsal və emal müəssisələrinin yaradılması, yerli istehsalın stimullaşdırılması, sahibkarlara güzəştli maliyyə yardımlarının həcminin artımı, habelə sənaye potensialının möhkəmləndirilməsi tədbirləri inkişaf dinamikasını qeyri-neft sektorunun xeyrinə dəyişib. Respublikada qeyri-neft sektoru hesabına 2013-cü ildə ÜDM-in artımının 3,5% təşkil edəcəyi və 70 milyard dollara yüksələcəyi proqnozlaşdırılır.

«Fitch Ratings» Agentliyinin Azərbaycanı yüksək makroiqtisadi dayanıqlığa malik ölkə kimi səciyyələndirməsi həm də strateji valyuta ehtiyatlarının ilbəil artan həcmi ilə bağlıdır. Qurum son bir neçə ildə respublikamızın büdcəsində profisitin müşahidə edilməsini mühüm göstəricilərdən biri kimi diqqətə çəkir. Agentliyin ekspertlərinin qənaətincə, hazırda təkcə Dövlət Neft Fondunda saxlanılan vəsaitlərin həcminin ÜDM-in 50%-ni təşkil etməsi 2013-cü il səviyyəsində cari xərclərin ən azı iki il ərzində maliyyələşdirilməsinə kifayət edir.

Azərbaycanın strateji valyuta ehtiyatları hazırda 46 milyard ABŞ dollarından artıqdır və bu da 5 milyard dollar civarında olan xarici dövlət borcunu 9 dəfədən çox üstələyir. Respublikada adambaşına düşən gəlirin xarici borcla müqayisədə 4,2 dəfə çox olması, adambaşına düşən valyuta ehtiyatlarının həcminin isə 7 min dollar təşkil etməsi davamlı inkişaf üçün etibarlı zəmin formalaşdırır. Bundan əlavə, Azərbaycan məcmu maliyyə yığımlarının ÜDM-ə nisbətinə görə dünyada ilk 10 ölkə arasında qərar tutur. Əgər 10 il əvvəl ölkənin tədiyyə balansında kəsir 30% səviyyəsində idisə, hazırda 30%-lik profisit mövcuddur.

Hökumət xarici mənbələrdən cəlb olunan maliyyə vəsaitlərini büdcə kəsirini örtməyə deyil, müasir sosial infrastrukturun formalaşdırılması yolu ilə investisiya mühitini yaxşılaşdırmağa yönəldir. Bütün bunlar da öz növbəsində biznes mühitinin yaxşılaşdırılmasına, ölkə iqtisadiyyatına investisiya qoyuluşlarının həcminin artmasına səbəb olur. Ötən il ölkə iqtisadiyyatına xarici mənbələrdən 13 milyard dollar həcmində sərmayə qoyulmuşdur. 2013-cü ildə bu vəsaitlərin bir qədər də artacağı proqnozlaşdırılır.

İqtisadçı ekspertlər ölkədə biznes və investisiya mühitinin formalaşmasına təsir göstərən mühüm amillər sırasında elektron xidmətlərin genişləndirilməsini, sahibkarlığın inkişafı sahəsində qanunvericiliyin liberallaşdırılması tədbirlərini xüsusi qeyd edirlər. Bu baxımdan, vergi xidməti orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi tədbirlərinin əhəmiyyəti də xüsusi vurğulanır. Vergi bəyannamələrinin təqdim edilməsinin, fiziki və hüquqi şəxslərin dövlət qeydiyyatının, habelə vergi və rüsumların büdcəyə ödənişinin elektron formada həyata keçirilməsi və digər tədbirlər ölkənin investisiya cəlbediciliyini artırır.

**S.MUSTAFAYEV**

# Yeni Qanun sahibkarların maraqlarına xidmət edəcək

*Milli Məclisdə «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi» haqqında qanun layihəsi ilkin oxunuşda qəbul edilib. Yeni Qanun ölkədə sahibkarları yersiz yoxlamalar və müdaxilələrdən qoruyacaq, müvafiq orqanlar tərəfindən həyata keçirilən planlı və plandankənar yoxlamaların sahibkarların normal fəaliyyətinə mane olmasının qarşısını alacaq.*



Qanun layihəsində sahibkarların risk qrupları üzrə bölgüsü (yüksək, orta və aşağı riskli) aparılır və bu bölgünün nəticəsindən asılı olaraq yoxlamaların aparılması tezliyi müəyyən edilir. Sahibkarların risk qrupları üzrə bölüşdürülməsi risk qruplarının müəyyənləşdirilməsi meyarları əsasında hər yoxlayıcı orqan tərəfindən onun nəzarət sahəsinə uyğun həyata keçirilir və yoxladığı bütün sahibkarlara şamil edilir.

Risk qrupları sahibkarların fəaliyyətinin kəmiyyət və keyfiyyət göstəriciləri əsasında müəyyən edilir. Hər bir yoxlayıcı orqanın nəzarət sahəsi üzrə risk qruplarının müəyyənləşdirilməsi meyarları həmin yoxlayıcı orqan tərəfindən hazırlanır və müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Hər bir yoxlayıcı orqan yoxladığı sahibkarları risk qrupları üzrə bölüşdürərkən aşağıdakı şərtlərə əməl etməlidir:

• yoxlanılan bütün sahibkarların ümumilikdə 10%-dən çox olmayan hissəsi yüksək risk qrupuna aid edilməlidir;
• yoxlanılan bütün sahibkarların ümumilikdə 30%-dən çox olmayan hissəsi orta risk qrupuna aid edilməlidir;
• yüksək və orta risk qruplarına aid edilməyən sahibkarlar aşağı risk qrupuna aid edilməlidir.

Risk qruplarının müəyyənləşdirilməsi meyarları (onların məzmunu və seçilməsi) üç ildə bir dəfədən az olmayaraq yenidən təhlil edilir.

Yoxlayıcı orqanın nəzarət sahəsi üzrə risk qruplarının müəyyənləşdirilməsi meyarları təsdiqlənməyibsə, həmin yoxlayıcı orqan plan üzrə (növbəti) yoxlama apara bilməz.

Sahibkarlarda plan üzrə (növbəti) yoxlamaların aparılması dövriliyi sahibkarın aid olduğu risk qrupundan asılıdır. Hər risk qrupu üçün plan üzrə (növbəti) yoxlamaların aparılması dövriliyi müəyyən edilir: yüksək risk qrupuna aid sahibkarlarda ildə bir dəfədən çox olmayaraq, orta risk qrupunda - iki ildə bir dəfədən çox olmayaraq, kiçik risk qrupunda - üç ildə bir dəfədən çox olmayaraq həyata keçiriləcək. Plan üzrə yoxlamanın müddəti orta və kiçik sahibkarlara münasibətdə 5 gün olmaqla, iri sahibkarlara münasibətdə isə 10 gündən artıq olmamaqla müəyyən edilir. Plandankənar yoxlama isə müvafiq olaraq iri sahibkarlara münasibətdə 5 gündən, orta və kiçik sahibkarlara münasibətdə 3 gündən artıq olmamalıdır və bu zaman yoxlamaların elektron uçotu aparılmalıdır.

Plandankənar (növbədənkənar) yoxlamalar, yeni qanun layihəsinə görə, yoxlayıcı orqanın istəyi ilə deyil, məhz konkret qanunun tələb etdiyi hallarda keçirilə biləcək. Bu cür yoxlamalar yalnız sonuncu yoxlama nəticəsində aşkar edilmiş pozuntuların aradan qaldırılmasına dair qərarın yerinə yetirilmədikdə, sahibkarın fəaliyyətinin məhdudlaşdırılması barədə qərarın icra vəziyyətinin yoxlanılmasına ehtiyac yarandıqda və konkret faktlara əsaslanan rəsmi müraciətlər olduqda, habelə sahibkar plandankənar yoxlamanın keçirilməsi barədə yoxlayıcı orqana müraciət etdikdə həyata keçirilə bilər.

Yoxlamaların keçirilməsi ilə bağlı hər hansı normativ-hüquqi aktın aydın olmayan və ya bir-birinə zidd olan müddəalarının sahibkarın xeyrinə şərh edilməsi tələbi qanun layihəsinin özəlliklərindən biridir. Qanun layihəsində sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına yalnız ən son zərurət tədbiri kimi baxılır.

Bundan başqa, qanun layihəsində yoxlayıcı orqanların qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) şikayət verilməsi üçün konkret mexanizmlər göstərilir və yoxlayıcı orqanların məsuliyyəti məsələləri də əksini tapıb. Qanuna görə foto, audio və video materiallar, kompüter məlumatı və digər məlumat daşıyıcıları yoxlamanın materiallarına əlavə edilir və saxlama müddəti ərzində saxlanılır. Foto, audio və video materiallar sahibkarın icazəsi olmadan kütləvi informasiya vasitələrinə təqdim edilə bilməz . Sahibkar keçirilən yoxlama tədbirlərinin foto, video çəkilişini və audio yazılışını apara, eləcə də istədiyi halda yoxlamaya kömək göstərilməsi üçün ictimai təşkilatların nümayəndələrini və ya istənilən üçüncü şəxsləri dəvət edə bilər.

Yoxlayıcı orqan aşağıdakı şərtlərin birgə mövcud olduğu hallarda sahibkarın fəaliyyətinin məhdudlaşdırılması barədə qərar qəbul edir:

• yoxlama zamanı aşkar edilmiş qanun pozuntusu insan həyatı və ya sağlamlığı, ətraf mühit və dövlətin əmlak maraqları üçün birbaşa və mühüm təhlükə yaratdıqda;
• həmin qanun pozuntusunun dərhal aradan qaldırılması mümkün olmadıqda;
• məhdudlaşma ilə bağlı səlahiyyətlər yoxlayıcı orqanın nəzarət sahəsi üzrə qanunla nəzərdə tutulduqda.

Yoxlayıcı orqan tərəfindən bu qanunda göstərilən əsaslarla və müddətlərdə keçirilən plandankənar (növbədənkənar) yoxlama zamanı fəaliyyətin məhdudlaşdırılması haqqında qərarda göstərilən tədbirlərin sahibkar tərəfindən yerinə yetirilmədiyi və ya qismən yerinə yetirildiyi aşkara çıxarılarsa, yoxlayıcı orqan sahibkarın fəaliyyətinin təkrar məhdudlaşdırılması barədə qərar qəbul edir.

**Arzu İBRAHİMOVA**

# Avropa Bankı Azərbaycanla yeni əməkdaşlıq strategiyası hazırlayır

*Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunun yeni inkişaf mərhələsinə qədəm qoyması Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) səhmdarlarının da diqqətini cəlb edib. Bank qarşıdakı illərdə İKT sektorunun yüksək gəlir gətirən sahə olacağını proqnozlaşdırır, trans-optik və iri kommunikasiya layihələrinə sərmayə qoymağı nəzərdən keçirir. Avropa Yenidənqurma və İnkişaf Bankının Türkiyədə keçirilən illik toplantısında bankın Qafqaz və Mərkəzi Asiya üzrə direktoru Mayk Teylor bildirib ki, hazırda regionda Türkiyə, Qazaxıstan və Azərbaycanın İKT sektoru xeyli inkişaf edib, bu sahələr investisiyalar üçün daha cəlbedicidir.*

AYİB-in regional direktoru bildirilib ki, Azərbaycanda makroiqtisadi sabitlik ümumi iqtisadi inkişafı təmin etməklə bir çox sahələrdə - investisiya qoyuluşu, daxili sərmayələrin həcminin artması, infrastruktur və kommunikasiya layihələrinə kapital yönəldilməsi kimi bölmələrdə inkişafın davamlılığına zəmin yaradacaq. O, Azərbaycan iqtisadiyyatının inkişafının gələcəkdə sürətlənəcəyinə dair nikbin fikirdə olduğunu, iqtisadiyyatın diversifikasiyası və modernləşməsi, qeyri-neft və qaz sektorlarının inkişafı, biznes və investisiya mühitinin yaxşılaşdırılması, texnoloji və innovativ inkişaf, maliyyə bazarlarının gücləndirilməsi ilə bağlı tədbirlərin öz səmərəsini verdiyini vurğulayıb. Qeyd olunub ki, ölkəmizdə həyata keçirilən islahatlar, xüsusilə də xarici sərmayəçilərin fəallığının yüksəlməsini stimullaşdıran tədbirlər Avropa Bankının da Azərbaycana sərmayə portfelindən daha çox vəsait yönəltməsinə impuls verib. Cənab Teylor bildirib ki, gömrük sistemində bəzi yeniliklərin tətbiqi Azərbaycanı Mərkəzi Asiya iqtisadi əməkdaşlıq ölkələri arasında liderlər mövqeyinə çıxarıb. Ölkə regionda trans-kommunikasiya qovşaqlarının yaradıcısına çevrilib.

İndi Azərbaycan öz unikal coğrafi mövqeyindən istifadə etməklə Şərqlə Qərbi birləşdirən dövlətə çevrilir. Ölkə irihəcmli investisiyaları regionda geniş kommunikasiya infrastrukturlarının yaradılmasına yönəldir. Ciddi strateji addım olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsi, eləcə də digər trans-nəqliyyat şəbəkələrinin yaradılması regional əməkdaşlığın genişlənməsi və inkişafı üçün vacib amildir. Mayk Teylorin fikrincə, Azərbaycanın hazırda regionda irihəcmli valyuta ehtiyatlarına malik olması ölkənin maliyyə qüdrətinin artmasında başlıca faktora çevrilib. 47 mlrd. dollar həcmində strateji valyuta portfeli və digər xarici aktivlər, bunun müqabilində isə 4,8 milyard dollarlıq xarici borc Azərbaycanın xalis kreditor mövqeyini gücləndirir.

Respublikamızın regionda güclü potensial sərmayədar ölkəyə çevrilməsi onun beynəlxalq mövqeyinin güclənməsinə təkan verən əsas amillərdəndir. Hazırda qlobal meyillərin dərinləşdiyi bir dövrdə fəal investisiya siyasəti hər bir ölkənin milli maraqlarının və mövqeyinin möhkəmlənməsinə təsir göstərir. Bu gün Azərbaycan dünyanın ən modern və potensial investorlarından biri kimi qəbul edilməkdədir və ölkəmizin sərmayəsinə maraqlı olan xarici dövlətlərin sayı artmaqdadır. Nəhəng maliyyə resurslarına malik olan ölkəmiz iqtisadi maraqlarının təmin olunması çərçivəsində son illərdə xarici ölkələrə milyardlarla dollar sərmayələr qoyur. Həmin investisiyalar Azərbaycan iqtisadiyyatını gücləndirməklə yanaşı, onun ümumi maraqlarının təmin edilməsində də əhəmiyyətli rol oynayır.

**Qlobal meyillərin dərinləşdiyi bir dövrdə fəal investisiya siyasəti hər bir ölkənin milli maraqlarının və mövqeyinin möhkəmlənməsinə təsir göstərir**

Avropa Yenidənqurma və İnkişaf Bankının regional direktoru Azərbaycanla bu maliyyə qurumu arasında strategiyanın hazırlanacağını da diqqətə çatdırıb. Bank yeni strategiya çərçivəsində bir sıra sahələrin - İKT, yol-nəqliyyat infrastrukturu, sosial layihələr, informasiya-kommunikasiya texnologiyaları, turizm, təhsil, səhiyyə, kənd təsərrüfatı və digər sahələrin inkişaf etdirilməsi ilə bağlı layihələrə investisiya qoyacaq. Bundan başqa, AYİB Azərbaycanın bank sistemi ilə əməkdaşlığı çərçivəsində bir sıra layihələri də maliyyələşdirəcək. Yeri gəlmişkən, Azərbaycanın bank sistemində baş verən mühüm dəyişikliklərin maliyyə-kredit sisteminə təkan verdiyini xatırladan Avropa Bankının ekspertləri bankların məcmu ehtiyat normalarının və nizamnamə kapitallarının artırılması ilə bağlı Mərkəzi Bankın tələblərini də dəstəkləyirlər. AYİB Azərbaycanın bank sistemində konsolidasiya (birləşmə) təşəbbüsünü müsbət addım hesab edir və bunun kapital-kredit resurslarının artmasına, sağlam və daha likvid kreditləşmə institutunun yaranmasına imkan verəcəyinə inandığını bildirir. Avropa Bankı Azərbaycan banklarının kredit resurslarının artırılmasına maliyyə dəstəyi göstərməyə hazır olduğunu da bəyan edib.

**Elbrus CƏFƏRLİ**

# Güzəştli kreditlərin həcmi artıb

*Sahibkarlara Kömək Milli Fondundan (SKMF) verilən məlumata görə, 2013-cü ilin birinci rübündə sahibkarlara 81 mln. 346,3 min manat kredit verilib. Verilmiş kreditlər 660 layihənin icrası üçün ayrılıb ki, bunlardan 586-sı kiçik, 20-si isə böyük həcmli kreditlər olub. Kiçik həcmli kreditlərin ümumi məbləği 7 mln. 272,3 min manat, iri həcmli kreditlərin məbləği isə 74 mln. 074 min manat təşkil edib.*

İlin ilk üç ayı ərzində SKMF tərəfindən sahibkarlara 40 mln. 531, min manat müxtəlif sənaye məhsullarının istehsalı və emalı sahəsində 27 layihənin icrasına, 2 mln. 700 min manat kənd təsərrüfatı məhsullarının emalı sahəsində 2 layihənin icrasına və 38 mln. 115,3 min manat kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində 577 layihənin icrasına ayrılıb. Qeyd edək ki, cari ilin ilk rübündə Fond tərəfindən ayrılan güzəştli kreditlər hesabına 2384 yeni iş yerinin yaradılacağı gözlənilir.

Bu ilin yanvar-mart ayları ərzində Azərbaycanda müəssisə və təşkilatların sayı 2013-cü il yanvarın 1-i vəziyyəti ilə müqayisədə 2,3% artaraq 80.814 olub.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə tam xarici investisiyalı və birgə müəssisələrin sayında nəzərəçarpacaq artım müşahidə olunub. Statistik vahidlərin Dövlət registrində qeydiyyatdan keçmiş tam xarici investisiyalı və birgə müəssisələr, əsasən, Türkiyə (30,2%), Böyük Britaniya (10,1%), Rusiya (6,8%), İran (6,0%), ABŞ (4,6%), Almaniya (2,4%) və digər ölkələrin (39,9%) sahibkarları tərəfindən yaradılıb.

**A.İBRAHİMOVA**

# Sadələşdirilmiş vergi bəyannaməsi

## Hüquqi şəxslər üzrə 1№-li Əlavənin tərtib olunmasında mühasibat uçotu məlumatlarının düzgün yerləşdirilməsi

Qulu Soltanov,
sərbəst auditor

**Əvvəli ötən saylarımızda**

**Sətir 2.1.1 «Nizamnamə kapitalı»**

**«dövr ərzində daxil olmuşdur» sütununda:** Bu sütunda əsasən 85№-li hesabın kredit dövriyyəsi üzrə illik yekun məbləği əks etdirilir. Məsələn, DB75 - KR85, DB88 - KR85, DB87 - KR85, DB60 - KR85, DB94 - KR85, DB95 - KR85 ikili yazılışları.
**«təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütununda:** *Təqdim edilmişdir:* boş saxlanılır. *Silinmişdir:* Burada hesabat ilində 85№-li hesabın debet dövriyyəsi üzrə illik yekun məbləği, yəni nizamnamə kapitalının azaldılan məbləği əks etdirilir. *Ləğv edilmişdir:* boş saxlanılır.

Kommersiya təşkilatları arasında təşkilati hüquqi formasına görə ən geniş yayılmış təsərrüfat cəmiyyətləri məhdud məsuliyyətli cəmiyyət və səhmdar (açıq və ya qapalı) cəmiyyətləridir. Bu cəmiyyətlər yaradılarkən onun təsisçiləri cəmiyyət dövlət qeydiyyatına alınanadək nizamnamə kapitalını tamamilə cəmiyyətin hesabına ödəməyə borcludurlar (Mülki Məcəllə, maddə 90.2 və 103.3). Bu halda DB75 - KR85 ikili yazılışı verilir.

Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı cəmiyyətin əmlakı hesabına iştirakçıların nizamnamə kapitalındakı mayalarının dəyərinə mütənasib şəkildə artırılması və (və ya) iştirakçılar tərəfindən əlavə mayaların qoyulması vasitəsilə və (və ya) cəmiyyətə qəbul edilən yeni iştirakçıların mayaları hesabına artırıla bilər (Mülki Məcəllə, maddə 90.4). Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının azaldılması isə bütün iştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə həyata keçirilə bilər (Mülki Məcəllə, maddə 90.8). Səhmdar cəmiyyəti səhmdarların ümumi yığıncağının qərarına əsasən səhmlərin nominal dəyərini artırmaqla və ya əlavə səhmlər buraxmaq yolu ilə nizamnamə kapitalını artıra bilər (Mülki Məcəllə, maddə 104.1). Səhmdarların ümumi yığıncağının qərarına əsasən isə səhmlərin nominal dəyərini azaltmaq yolu ilə və ya səhmlərin bir hissəsini satın alıb, onların ümumi miqdarını azaltmaq yolu ilə nizamnamə kapitalı azaldıla bilər (Mülki Məcəllə, maddə 105.1).

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 90-cı, 104-cü və 105-ci maddələrinə uyğun olaraq məhdud məsuliyyətli cəmyyətlərin və səhmdar cəmyyətlərinin nizamnamə kapitalının artırılan məbləginə DB75 - KR85 ikili yazılışı, azaldılan məbləğinə isə DB85 - KR75, DB85 - KR88, DB85 - KR86, DB85 - KR87 ikili yazılışları verilir.

***Misal.*** Sadələşdirilmiş vergi ödəyicisi olan müəssisənin nizamnamə kapitalı üzrə aşağıdakı ikili yazılışlar verilmişdir *(bax: cədvəl 1)*.

Bu əməliyyatlar üzrə məbləğlər dövriyyə cədvəlində aşağıdakı kimi olacaqdır *(bax: cədvəl 2)*.

Belə halda həmin göstəricilər bəyannamənin Əlavəsində aşağıdakı kimi əks etdirilməlidir *(bax: cədvəl 3)*.

Bəzən qeyri-adi əməliyyatlar nəticəsində də nizamnamə kapitalının artması halı mümkündür. Məsələn, müəssisə (ona qoşulanı qəbul edən) qoşulma (başqa bir müəssisənin ləğv edilərək əmlakı və öhdəlikləri ilə birlikdə qəbul edən müəssisəyə qoşulma) yolu ilə yenidən təşkil olunarkən qoşulan müəssisənin xalis aktivlərinin dəyəri qədər qəbul edən müəssisənin nizamnamə kapitalı artırıla bilər.

**Davamı növbəti sayımızda**

Cədvəl 1

| Əməliyyatların məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|
| Müəssisə hesabat ilində yaradılmış və təsisçilərin qərarına əsasən müəssisənin nizamnamə kapitalının məbləği təsdiq edilmişdir | 75 | 85 | 5000 |
| Yeni yaradılmış müəssisənin təsisçiləri tərəfindən pul şəklində həmin müəssisənin bank hesabına təsisçi payı ödənilmişdir | 51 | 75 | 5000 |
| Həmçinin, hesabat ilində təsisçilərin qərarına əsasən təsisçilər tərəfindən pul şəklində əlavə mayaların qoyulması yolu ilə nizamnamə kapitalı artırılmışdır | 75 | 85 | 2000 |
| Həmçinin, hesabat ilində təsisçilərin qərarına əsasən müəssisəyə qəbul edilən yeni təsisçinin əmlak şəklində mayası hesabına nizamnamə kapitalı artırılmışdır | 75 | 85 | 1000 |
| Təsisçilər tərəfindən pul şəklində əlavə mayaların qoyulması məqsədilə müəssisənin bank hesabına təsisçi payı ödənilmişdir | 51 | 75 | 2000 |
| Yeni təsisçi tərəfindən əmlak şəklində həmin müəssisənin balansına (mülkiyyətinə) əsas vəsait təhvil verilmişdir | 01 | 75 | 1000 |

Cədvəl 2

| Hes. №-si | Hesabın adı | 01 yanvar 2012-ci il tarixə qalıq | | 2012-ci ildə dövriyyə | | 01 yanvar 2013-cü il tarixə qalıq | |
|---|---|---|---|---|---|---|---|
| | | *Debet* | *Kredit* | *Debet* | *Kredit* | *Debet* | *Kredit* |
| 85 | Nizamnamə kapitalı | | | | 8000 | | 8000 |
| | Cəmi | | | | 8000 | | 8000 |

Cədvəl 3

| Göstəricilər | Dövr ərzində daxil olmuşdur, manatla | Təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir, manatla | Hesabat dövrünün sonuna, manatla |
|---|---|---|---|
| 2.1.1 Nizamnamə kapitalı | 8000 | Təqdim edilmişdir: | 8000 |
| | | Silinmişdir: | |
| | | Ləğv edilmişdir: | |

## vergi təqvimi

| MAY | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | **5** |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | **12** |
| 13 | 14 | **15** | 16 | 17 | 18 | **19** |
| **20** | 21 | 22 | 23 | 24 | 25 | **26** |
| 27 | 28 | 29 | 30 | 31 | | |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**
15 may - «(5)» və «6».
20 may - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlə büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Müəssisələr torpaq sahəsinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən torpaq vergisini illik olaraq hesablayır və may ayının 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən aparılan istintaq tədbirləri nəticəsində Qeybulla Niftulla oğlu Əliyevin «Samir» kiçik müəssisəsinin, Qərib Müzəffər oğlu Cəfərovun isə «Aydın LTD» firmasının direktoru vəzifəsində çalışarkən Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16, 53, 72, 77, 78, 159, 201, 203, 206 və 208-ci maddələrinin tələblərini pozaraq, 2009-2011-ci illər ərzində vergi orqanına təqdim etdikləri bəyannamələrə bilə-bilə təhrif olunmuş məlumatlar daxil etməklə və bəyannamə təqdim etməməklə xeyli miqdarda vergi məbləğini dövlət büdcəsindən yayındırdıqları aşkar olunmuşdur.

Təqsirləndirilən şəxs qismində cəlb edilən Q. Əliyev daş istehsal etmək məqsədilə Abşeron Rayon İcra Hakimiyyətinin sərəncamı ilə istifadəyə götürdüyü 4 hektar torpaq sahəsinə görə, Vergi Məcəlləsinin 203.1-ci maddəsinə əsasən, sahənin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq hər il sabit tədiyyə şəklində torpaq vergisi hesablamalı olduğu halda, təqdim etdiyi bəyannamələrdə 2009-cu il üzrə 3.040 manat, 2010-cu il üzrə 3.040 manat, 2011-ci ildə 1.600 manat torpaq vergisini azaltmaqla ümumilikdə 7.556,40 manat məbləğində vergini dövlət büdcəsinə ödəməkdən yayınmışdır.

Q.Cəfərov isə 2010-cu ildə 5.455,60 manat əlavə dəyər vergisini, 180 və 144 manat məbləğində torpaq vergisini - cəmi 5.779,60 manat məbləğində vergini büdcəyə ödəməmişdir.

Hər iki təqsirləndirilən şəxsə Azərbaycan Respublikası CM-in 213.1-ci maddəsi ilə ittiham elan olunmuşdur. Təqsirləndirilən şəxs qismində dindirilmiş Q. Əliyev elan edilmiş ittihamla özünü təqsirli bilmişdir. O, müəssisənin fəaliyyətinin 1999-cu ildən 2006-cı ilə qədər dekorativ və tikinti daşlarının hasilatından ibarət olduğunu, həmin dövrdə bütün vergilərin dövlət büdcəsinə ödənildiyini, lakin 2006-cı ildən sonra həmin torpaq sahəsində heç bir fəaliyyət göstərmədiyi üçün vergiləri dövlət büdcəsinə ödəyə bilmədiyini demişdir. Təqsirləndirilən şəxsin sözlərinə görə, 2009-cu ildə müvafiq qurumlara məktubla müraciət edərək müəssisə fəaliyyət göstərə bilmədiyindən ayrılmış 4 hektar torpaq sahəsinin 3 hektarının geri alınmasını xahiş etsə də, onun müraciətinə baxılmamışdır.

Q. Cəfərov yayındırdığı verginin 1.800 manatını istintaqın gedişində könüllü olaraq şəxsən dövlət büdcəsinə ödəmişdir.

Abşeron Rayon Məhkəməsinin hökmü ilə Qeybulla Əliyev 1 il vəzifətutma hüququndan məhrum olunmaqla və qazancının 20%-i tutulmaqla 2 il islah işlərinə məhkum edilmişdir. Göygöl Rayon Məhkəməsinin hökmü ilə Qərib Cəfərov 1 il müddətinə dövlət orqanlarında, yerli özünüidarə orqanlarında rəhbər vəzifətutma və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilmiş, aylıq qazancından 10%-i dövlət nəfinə tutulmaqla 1 il islah işləri ilə cəzalandırılmışdır.

**ARZU**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

Audit

# Lizinq alanda lizinq obyektinin vergi uçotu

Lizinq anlayışı və onun uçotu ilə bağlı məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 38-ci fəslində və «İcarə üzrə» Kommersiya Təşkilatları üçün $14^1$-li Milli Mühasibat uçotu Standartının 22-32-ci və 35-46-cı maddələrində açıqlanmışdır. Lizinq əməliyyatı barədə qısaca desək, lizinq verən (maliyyələşdirən) lizinq alana (əşyaya tələbatı olana) lazım olan əşyanı həmin əşyanı satandan (satıcıdan) alır və lizinq alana uzun müddətə icarəyə verir. Lizinq alan (uzun müddətə icarəyə götürən) isə əldə etdiyi əşyaya görə haqq (muzd) ödəyir. Lizinqə verilən əşya lizinq müqaviləsi dövründə lizinq verənin mülkiyyətində qalır (Mülki Məcəllə, maddə 748-2.1) və həmin əşya lizinq alanın müvəqqəti sahibliyinə və istifadəsinə verilir (Mülki Məcəllə, maddə 748-2.2). Lizinq müqaviləsi başa çatdıqdan sonra lizinq obyektinə mülkiyyət hüququ lizinq alana keçir (Mülki Məcəllə, maddə 748.2.5).

Lizinq obyektinin və ya lizinq əməliyyatlarının lizinq alanda uçotunun aparılmasına diqqət yetirək. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 748-3-cü (Lizinq obyektinin uçotu) maddəsinə görə maliyyə lizinqi əsasında lizinq alana verilmiş lizinq obyekti tərəflərin qarşılıqlı razılığı əsasında lizinq verənin və ya lizinq alanın balansında uçota alınmalıdır. «İcarə üzrə» Kommersiya Təşkilatları üçün Milli Mühasibat uçotu Standartlarının 22-ci maddəsinə görə isə icarə müddətinin başlanması tarixində icarəyə götürən maliyyə icarəsini öz balansında icarəyə götürülmüş əmlakın ədalətli dəyərinə bərabər olan məbləğlə, yaxud əgər bu məbləğ aşağıdırsa, minimal icarə ödənişlərinin hər birinin icarə şərtlərinin qəbul edilməsi tarixində müəyyən edilmiş diskontlaşdırılmış dəyərilə aktiv və öhdəlik kimi tanımalıdır. Göründüyü kimi, Mülki Məcəllədə lizinq verəndə və ya lizinq alanda, yəni iki tərəfdən hər hansı birində lizinq obyektinin uçota alınmasını nəzərdə tutmasına baxmayaraq, $14^1$-li MMUS-da yalnız bir tərəfdə, yəni lizinq alan tərəfdə uçota alınması göstərilmişdir.

Ölkəmizdə kifayət qədər lizinq əməliyyatlarından bəhrələnən sərnişin və yükdaşıma üzrə nəqliyyat xidmətləri göstərən təşkilatlar, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri, iaşə və ticarət obyektləri və digər təsərrüfat subyekləri vardır. Bu subyektlər əmlak, mənfəət və yol vergisinin ödəyiciləri ola bilər və bu səbəbdən də audit zamanı onların vergi öhdəliklərinə düzgün əməl olunmasına diqqət yetirilməlidir..

30 yanvar 2009-cu il tarixdən qüvvədə olan «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»nda lizinq formasında əldə edilmiş əsas vəsaitlərin uçotu barədə konkret müddəalar göstərilməmişdir. Ona görə də sadələşdirilmiş vergi ödəyiciləri üçün bu sahədə anlaşılmazlıq yarana bilər. Lizinq yolu ilə daşınar və daşınmaz əşyalar (əsas vəsaitlər) əldə edən sadələşdirilmiş vergi ödəyicilərinə tövsiyə olunur ki, həmin əsas vəsaitləri balansda $01^1$-li hesabda ayrıca subhesab (məsələn, 01-2 $^1$-li «lizinqə götürülmüş əsas vəsaitlər» subhesabı) açsınlar. Xatırladaq ki, əvvəlki ənənəvi hesablar planında lizinq obyekti üçün ayrıca $03^1$-li «Uzun müddətə icarəyə götürülmüş əsas vəsaitlər» hesabı mövcud idi.

Beləliklə, lizinq alan sadələşdirilmiş vergi ödəyicisi lizinqə götürdüyü əsas vəsaitləri öz balansında $01^1$-li hesabda mülkiyyətində olmayan əsas vəsait kimi uçota almalı və digər mülkiyyətində olan əsas vəsaitlərə tətbiq etdiyi uçot siyasətini (amortizasiya, təmir, qiymətləndirmə və sair) bu əsas vəsaitlərə də tətbiq etməlidir.

Sadələşdirilmiş vergi ödəyicisi olmayan digər kommersiya təşkilatları da $14^1$-li MMUS-un tələblərinə uyğun olaraq lizinqə götürülmüş əmlakı öz balansında uçota almalıdır. Həmin əmlak lizinqə verənin balansında həmin əmlaka qoyulmuş xalis investisiya dəyərinə bərabər məbləğdə debitor borcları (investisiyanın əsas məbləği ilə maliyyə gəlirinin cəmi) kimi uçota alınmalıdır.

Əmlak vergisinin ödəyicisi olan lizinq alan təşkilat mülkiyyətində olan əsas vəsaitlərlərlə birlikdə mülkiyyətində olmayan, lakin balansında olan lizinqə götürülmüş əsas vəsaitlərin də qalıq dəyərini nəzərə almaqla əmlak vergisini hesablamaq üçün orta illik qalıq dəyərini hesablamalıdır. Məhz ona görə də Vergi Məcəlləsinin 197.1.3-cü maddəsində vergitutma obyekti kimi müəssisələrin mülkiyyətində deyil, balansında olan əsas vəsaitlərin orta illik dəyəri nəzərdə tutulub. Lizinq alan lizinqə götürdüyü əsas vəsaitlərə tətbiq etdiyi amortizasiya nəticəsində yaranan məbləğləri mənfəət vergisinin məqsədləri üçün nəzərdə tutulan xərclərin tərkibinə daxil edə bilər. Həmçinin lizinq alan lizinqə götürülmüş nəqliyyat vasitələri üçün yol vergisini özü hesablamalı və dövlət büdcəsinə ödəməlidir.

# Sahibkarlarla görüş

*13 saylı Ərazi Vergilər İdarəsinin nəzarət dairəsinə daxil olan Zaqatala rayonunun Faldarlı kəndində yerli sahibkarlar və bələdiyyə üzvlərinin iştirakı ilə görüş keçirilmişdir.*

Tədbirdə çıxış edən icra hakimiyyətinin səlahiyyətli nümayəndəsi Yusif Davudov ölkə rəhbərliyi tərəfindən həyata keçirilən uğurlu islahatların respublikada sahibkarlığın daha da inkişaf etdirilməsinə və yeni iş yerlərinin açılmasına təkan verdiyini qeyd etmişdir.

13 saylı Ərazi Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Həsən İsrafilov öz çıxışında müasir dövrdə sahibkarlığın inkişafına dövlət dəstəyindən, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılmasından, özəl istehsal sahələrinin inkişafı üçün münbit şəraitin yaradılmasından söhbət açmışdır. Vurğulanmışdır ki, vergi proqnozlarının icrası və vergi daxilolmalarının dövlət büdcəsinə vaxtında ödənilməsinin könüllülük prinsipi əsasında aparılması Vergilər Nazirliyinin əsas prioritetlərdəndir.

Sahibkarlarla görüşdə müasir dövrümüzün tələbi olan POS-terminallardan istifadənin üstünlükləri, bələdiyyə vergilərinin hesablanması və ödənilməsi qaydaları barədə də geniş məlumat verilmişdir.

beynəlxalq panorama

Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin birgə təşkil etdikləri «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları

**MÜSABİQƏSİ**

***Müsabiqənin məqsədi***

Müsabiqənin məqsədi ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müasir vergi sistemi ilə bağlı yenilikərin və məlumatların cəmiyyətə çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

***Müsabiqənin mövzuları:***

- Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti;
- Nağdsız ödəniş sisteminin inkişaf istiqamətləri;
- Əmək müqaviləsi: gələcəyə təminat.

***Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması***

Müsabiqəyə hər üç istiqamət üzrə təqdim edilmiş yazıların mükafatlandırılması nəzərdə tutulur.

➔ I yer (3) - 800 manat
➔ II yer (3) - 500 manat
➔ III yer (3) - 300 manat

Bundan əlavə, 10 ən yaxşı yazı müəllifinə həvəsləndirici mükafatlar veriləcəkdir. Qaliblər Azərbaycan Mətbuat Şurası və Vergilər Nazirliyinin «Vergilər» qəzetinin xüsusi diplomları ilə təltif olunacaqlar.

***Müsabiqədə iştirak***

Müsabiqə elan olunan günədək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal və informasiya agentliklərində) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

***Müsabiqəyə təqdim olunan yazılara aid tələblər***

1. Müsabiqəyə hər jurnalist yalnız bir yazı təqdim edə bilər.
2. Yazı son bir ildə həftədə bir dəfədən az olmayaraq nəşr edilən, Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi «qara siyahı»ya düşməyən mətbuat orqanlarında dərc edilməlidir.
3. Yazıda «Vergilər Nazirliyinin «Vergilər» qəzetinin və Azərbaycan Mətbuat Şurasının keçirdikləri müsabiqəyə təqdim etmək üçün» qeydi göstərilməlidir.

***Yazıların qəbulu şərtləri***

1. Yazının dərc olunduğu mətbuat orqanı (qəzet, jurnal) 2 nüsxə
2. Yazının elektron variantı (Times New Roman (14) şriftində - CD diskdə) 1 nüsxə
3. Yazının A4 formatda çap olunmuş variantı (müəllifin imzası göstərilməmlidir) 3 nüsxə
4. Yazıların həcmi: 1 səhifə (A3) olmalıdır (9-11 min işarə)

***Tələb olunan sənədlər***

1. Əmək kitabçasının işlədiyi KİV tərəfindən təsdiq edilmiş surəti (möhür və baş redaktorun imzası)
2. Şəxsiyyət vəsiqəsinin surəti

*Yazılar 01 may 2013-cü il tarixdən 24 may 2013-ci il tarixədək qəbul edilir. Müsabiqənin nəticələri 10 iyun 2013-cü il ilədək açıqlanacaqdır.*

*Yazılar rəsmi iş günləri saat 10:00-dan 16:00-dək Azərbaycan Mətbuat Şurasına şəxsən təqdim olunmalıdır (Bakı şəhəri, Teymur Əliyev küçəsi 38)*

*Əlaqə telefonu: (012) 441 35 96.*

***Qiymətləndirmə meyarları:***

- mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma;
- materialın oxucu üçün informasiyalılıq səviyyəsi;
- yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi;
- jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti.

# Vergi auditinin monitorinqi mövzusunda seminar

*6-8 may tarixlərində Macarıstanın paytaxtı Budapeşt şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən «Vergi auditlərinin effektivliyinin monitorinqi» mövzusunda keçirilmiş seminarda 19 ölkənin vergi administrasiyasının 30 nümayəndəsi iştirak etmişdir.*

Tədbirdə Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamentinin Xüsusi vergi rejimli müəssisələrin auditi şöbəsinin baş dövlət vergi müfəttişi Azər Əsədov iştirak etmişdir. Seminar zamanı mühazirəçilər tərəfindən vergi auditlərinin effektivliyinin monitorinqi, vergi planlaşdırılması, riskin analizi sistemləri, maliyyə üsulları, beynəlxalq vergidən yayınma və ona qarşı istifadə edilən ümumi və spesifik qaydalar mövzuları üzrə təqdimatlar olmuşdur. Tədbir iştirakçıları öz ölkələrinin təcrübələri əsasında vergidən yayınma zamanı yaranan məsələlər, ortaya çıxan problemlər və onların həlli yolları barədə müzakirələr aparmışlar.

# Beynəlxalq Valyuta Fondu Ukraynaya vergi dərəcələrini aşağı salmamağı məsləhət görür

*Beynəlxalq Valyuta Fondu (BVF) belə hesab edir ki, Ukrayna büdcə gəlirləri ilə bağlı vəziyyəti yaxşılaşdırmaq üçün vergi dərəcələrinin aşağı salınması məsələsində bir qədər gözləməlidir. Burada söhbət mənfəət və əlavə dəyər vergisindən gedir. Fondun büdcə məsələləri üzrə mütəxəssislərinin hesabatında Ukrayna hökuməti üçün məsləhətlər öz əksini tapmışdır.*

BVF-nin mövqeyinə görə, mənfəət vergisi dərəcəsinin 19%-dən 16%-ə salınması 2014-cü ildə dövlət büdcəsi gəlirlərinin həcmini 7-8 mlrd. qrivna (0,0964 manat) azaldacaq. ƏDV dərəcəsinin 20%-dən 17%-ə aşağı salınması ilə Ukrayna daha çox itkilərlə qarşılaşa bilər. Ukraynanın qarşılaşdığı maliyyə problemləri şəraitində belə itkilərə yol vermək isə ehtiyatsızlıq olardı.

BVF, eyni zamanda, sosial ödənişin ödənilməsi üçün nəzərdə tutulan həddin ləğv edilməsini də tövsiyə edir. Bu gün müvafiq ödəniş 17 minimal əməkhaqqını keçən məbləğdən tutulur. BVF hesab edir ki, son həddən yuxarı əməkhaqqının məbləği 20 mlrd. qrivna təşkil edir və həddin ləğvi büdcəyə əlavə 8 milyard qrivna gəlir təmin edəcək.

Xatırladaq ki, orta ukrayna vətəndaşı dövlətə ayda 2,092 min qrivna vergi ödəyir və bu məbləğ ildə 25 min qrivnaya çatır.

# Fransada smartfonlara vergi tətbiq olunacaq




Fransada mobil texnologiyadan vergi tutulması imkanına baxılacaq. Bu, hər şeydən əvvəl, smartfonlara və planşetlərə aid olacaq. Bu vergitutmadan əldə edilən bütün gəlirlər kinemotoqrafiya və ədəbiyyat sferasında mədəniyyət layihələrinin inkişafına sərf ediləcək. Vəsaitlərin yığımı cihazın dəyərindən asılı olaraq 1%-ə qədər təşkil edəcək ki, bu da ildə dövlət büdcəsinə 86 milyon avro gəlir gətirə bilər. Bu təklif mədəniyyətin maliyyələşdirilməsi məsələləri üzrə hökumət komissiyası tərəfindən təqdim edilib. Əgər müvafiq layihə Fransa prezidenti Fransua Olland tərəfindən təsdiq edilərsə, elektron daşıyıcılara vergi bu sferada yeni vergitutma sistemi ilə əvəz olunacaq. Fransa prezidenti müvafiq layihəyə cari ilin yayında baxacaq.

Əvvəllər Fransanın bəzi orqanları «Google» və «Yahoo» kimi şirkətlərin vergiyə cəlb olunmasına cəhd etsələr də, hökumət tərəfindən bu addımlar dəstəklənməmişdir.

# Rusiyada siqaretin bahalaşacağı gözlənilir

*Qəzetimizin ötən buraxılışında Fransadan buna bənzər bir xəbər dərc etmişdik. İndi isə Rusiya Maliyyə Nazirliyi siqaret aksizlərini qaldırmaq niyyətində olduğunu bildirib.*

Keçən həftə nazirlik qarşıdakı üç il üçün büdcə planlarını təqdim edib. Plana görə, aksizlər gələn il 42%, 2015-ci ildə 20%, 2016-cı ildə isə 28% artırılacaq. İctimai yerlərdə siqaret çəkilməsinə görə cərimə qoyulmasının təşəbbüsçülərindən biri, Dövlət Dumasının deputatı Dmitri Nosovun rəyinə görə, bu, o qədər də çox deyil: «Aksizlərin artırılması tütün tüstüsünün ziyanlı nəticələri ilə mübarizənin ən səmərəli üsuludur. Bu, siqaretin uşaqlar üçün əlçatan olmasının qarşısını almaq üçün kiçik, lakin məsul bir addımdır. Əslində, siqaretin bir qutusunun qiyməti 5 rubl (1 rubl = 0,025 manat) artacaq, çünki 40% siqaretin bahalaşmasının deyil, aksizin artımının göstəricisidir. Ümidvaram ki, hökumət bu istiqamətdə fəaliyyətini dayandırmayacaq, inkişaf etmiş ölkələrdə siqaretin bir qutusunun qiyməti neçəyədirsə, bizdə də həmin qiymətə olacaq».

Britaniyanın Adam Smit İnstitutunun eksperti Kristofer Snoudonun son zamanlarda tamamladığı araşdırmanın nəticələrinə görə isə aksizlərin artırılması ziyanlı vərdişlərə qarşı mübarizə vasitəsi olsa da, ən səmərəli vasitə deyil, onun yan təsirləri kölgə iqtisadiyyatına stimul yaradır. «Sağlamlığın qorunması naminə tütün məmulatlarına verginin artırılması bir neçə nəticəyə gətirib çıxara bilər ki, heç də bunların hamısı müsbət nəticələr deyil. Siqaretə alışan insanlar üçün, bu, sadəcə, əlavə maliyyə yüküdür. Nəticədə onlar yüksək keyfiyyətli siqaretlərdən imtina edib, ucuz siqaretlərə üstünlük verəcəklər», - Kristofer Snoudon bildirmişdir.

Əgər Rusiyanın Maliyyə Nazirliyinin planı baş tutsa, tütün şirkətlərinin təxminlərinə görə, siqaretin bir qutusunun qiyməti orta hesabla 80 rubldan (2 manatdan) artıq olacaq. Xatırladaq ki, hazırda Fransada ən ucuz siqaretin bir qutusunun qiyməti təxminən 6 manatdır.

# Kosmonavt öz vergisini kosmosdan ödəyib

Rusiya kosmonavtı Pavel Vinoqradov Beynəlxalq Kosmik Stansiyanın (BKS) bortunda Federal Vergi Xidmətinin saytındakı «Vergi ödəyicisinin şəxsi kabinəsi»ndən istifadə edərək öz vergilərini ödəmişdir. «Mənə aid bütün əmlak vergilərini Yer kürəsindən min kilometrlərlə uzaqda ödəmək mümkün oldu. Hər şey internetin mövcud olduğu hər yerdə və hər zaman açıq olan «şəxsi kabinədədir», - kosmonavt bildirmişdir. 59 yaşlı Pavel Vinoqradov kosmosa ilk uçuşunu 1997-ci ildə edib. Hazırda o, martın sonundan başlamış 35-ci kosmik ekspedisiyanın tərkibindədir.

## krossvord



**Yuxarıdan aşağı:**

1.Seyid Əli Məhəmməd Babın (1819-1850) adı ilə bağlı dini təlim; 2.Əfqanıstanın qərbində şəhər; 3.Tağ; 5.Cənubi Sibir və Monqolustanda süddən hazırlanan alkoqollu içki; 6.ABŞ-da ştat; 7.Azərbaycanın xalq şairi, Azərbaycan sovet poeziyasının yaradıcılarından biri. «Ana və poçtalyon» əsərinin müəllifi; 8.Britaniyalı rok musiqiçisi; 14.Ölkəmizdə Avropa Yayım İttifaqı üzvü olan TV-kanal; 15.Manna dövlətinin ikinci hökmdarı (e.ə. 719-716); 17.Futbolçunun öz qapısına vurduğu qol; 19.Göygöl rayonunun əvvəlki adı; 20.Silahsız özünüqoruma sistemi və idman növü; 21.Afrikada dövlət; 25.Latviyada şəhər; 26.Türkiyədə əyalət; 27.Azərbaycanın cənub-qərbindəki Kiçik Qafqaz sıra dağlarının cənub-şərq yamacında, dəniz səviyyəsindən 1400 metr hündürlükdə yerləşən mağara kompleksi.

**Soldan sağa:**

1.Tarzən, Azərbaycanın xalq artistinin adı (1911-1985). Bəstəkar Eldar Mansurovun atası; 4.Çini; 9.Azərbaycan dilində «çoxluq», «bolluq» mənası verən ərəb mənşəli söz; 10.Misir fironu; 11.Yunan əlifbasında 6-cı hərf; 12.Genetik iniformasiyanın DNT-dən zülallara keçirilməsində önəmli rol oynayan biopolimer (turşu); 13.Toksik kimyəvi element, son vaxtlar lüminesent lampalarda geniş istifadə edilir; 16.Sərinləşdirici alkoqolsuz içki; 18.Baltik dənizində ada; 22.Türk mifologiyasında yaxşılıq tanrısı; 23.Memarlıqda divarlarda pəncərə və qapı yerlərinin, yaxud iki dayaq (sütun, dirək və s.) arasındakı boşluğun üstünü örtmək üçün əyrixətli örtük konstruksiyası; 24.Alkanlar sinfinə daxil olan üzvi birləşmə ($C_2H_6$); 28.Mesopotamiyada Qədim dövr şəhərlərindən biri; 29.A.N.Tolstoyun «Buratino» əsərində personaj; 30.Keçmişdə çox geniş yayılmış, hazırda isə yalnız kiçik bir ərazidə qalan və ya müəyyən kiçik bir sahədə yaşayan bitki və ya heyvan növü; 31.«İcad etmək», «düzəltmək» mənası verir, adətən, təsərrüfat əhəmiyyətli elmi tapıntılara aid edilir.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:**
1.Mərəzə; 2.Çadan; 3.Alma; 5.İida; 6.Nəlbəki; 7.Sonora; 8.Əsnaf; 14.Top; 15.Qax; 17.Pomidor; 19.Ramzes; 20.Mazda; 21.Faktor; 25.İzmit; 26.Antu; 27.Elba.

**Soldan sağa:**
1.Miçman; 4.Dionis; 9.Radames; 10.Delon; 11.Zond; 12.Gal; 13.Qəsr; 16.İppon; 18.Vaqif; 22.Amma; 23.Yaz; 24.Lima; 28.Zidan; 29.Dolomit; 30.Surqut; 31.Santur.


Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

idman

# «Azərbaycanda velosiped idmanının böyük inkişaf perspektivləri var»

## Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti Patrik Makkuayt bu qənaətdədir

*Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Tour d'Azerbaidjan - 2013» velosiped turunun təşkilatçılıq səviyyəsi dünya miqyasında yüksək qiymətləndirilir. Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti cənab Patrik Makkuayt qəzetimizə müsahibəsində veloturun yekunları və ümumən Azərbaycanda velosiped idmanının inkişaf perspektivləri ilə bağlı fikirlərini bölüşmüşdür.*



***- Cənab Makkuayt, son iki ildə Azərbaycanda təşkil olunmuş veloturlarla bağlı təəssüratlarınız nədən ibarətdir?***

- Azərbaycan Cənubi Qafqaz regionunda sürətli inkişafı ilə fərqlənən, Şərq və Qərb mədəniyyətlərinin dialoq məkanına çevrilən, Avropanın enerji təhlükəsizliyinə töhfə verən ölkə kimi tanınır. Azərbaycan öz potensialından səmərəli istifadə edərək bütün sahələrdə yüksək dinamizmlə inkişaf edir. Bütün bunlar, öz növbəsində, ölkədə idmanın inkişafı üçün də əlverişli şərait yaradır. Azərbaycan hakimiyyətinin idmana xüsusi diqqət və qayğısını xüsusilə qeyd etmək istərdim. Prezident cənab İlham Əliyevlə ötənilki görüşüm zamanı onun ölkə idmanının inkişafında nə qədər maraqlı olduğunu gördüm. Yüksək diqqət və qayğının nəticəsidir ki, Azərbaycanda hazırda idmanın müxtəlif növləri üzrə mötəbər yarışlar keçirmək üçün infrastruktur, maddi-texniki baza mövcuddur. İdman infrastrukturunun formalaşması, eyni zamanda, əhalinin fiziki sağlamlığı baxımından vacibdir.

Son iki ildə Azərbaycanda keçirilmiş veloturlarla bağlı təəssüratlarım yüksəkdir. Hələ 2012-ci ildə keçirilmiş ilk velotur Azərbaycanın yaxşı təşkilatçı olduğunu göstərmişdi. Əlbəttə, mən burada ölkə rəhbərliyinin siyasi iradəsi ilə yanaşı, Azərbaycan Velosiped İdmanı Federasiyasının yüksək təşkilatçılığını da xüsusi qeyd etmək istərdim. Federasiya rəhbərliyi ilk gündən sonadək yarışların təşkilinə və keçirilməsinə böyük həssaslıqla yanaşmışdır.

Builki velotur ötən illə müqayisədə irəliyə doğru daha bir addım olmuşdur. «Avrosport» kimi nüfuzlu telekompaniyanın veloturla bağlı informasiyaları bütün dünyaya yayması təbliğati baxımdan mühüm əhəmiyyət daşıyırdı. Hesab edirəm ki, «Tour d'Azerbaidjan»ın səviyyəsi ildən-ilə daha da yüksələcək, biz gələcəkdə Azərbaycanda daha mötəbər velosiped yarışlarının keçirilməsinin şahidi olacağıq.

***- Sizcə, Azərbaycanın təbiəti belə yarışların keçirilməsi baxımından nə dərəcədə əlverişlidir?***

- Azərbaycanın təbii üstünlükləri, relyef xüsusiyyətləri, landşaftı burada velosiped yarışlarının keçirilməsinə əlverişli imkanlar yaradır. Ölkənin yol infrastrukturu da qənaətbəxş səviyyədədir.

Ötənilki turnirdən sonra Beynəlxalq Velosipedçilər İttifaqı yarışların daha da mürəkkəb, çətin dağ mərhələlərində təşkilini tövsiyə etmişdi. Təqdirəlayiq haldır ki, bu il Təşkilat Komitəsi veloturun marşrutlarını müəyyənləşdirərkən bu tövsiyəni nəzərə almışdır.

***- Belə yarışların keçirilməsinin Azərbaycanda velosiped idmanının inkişafı baxımından necə dəyərləndirirsiniz?***

- Şübhəsiz, velosiped idmanının özünəməxsus üstünlükləri vardır. Velosiped, ilk növbədə, nəqliyyat vasitəsidir və ondan istifadə edənlərin sayının artması böyük şəhərlərdə tıxac probleminin həlli və ekoloji durumun sabitləşməsi baxımından vacibdir. Bu idman növünün kütləviləşməsi insanların sağlamlığı baxımından da mühüm əhəmiyyət kəsb edir. Hesab edirəm ki, Azərbaycanda keçirilmiş veloturlar əhalidə, xüsusən də gənclərdə bu idman növünə marağı gücləndirir. Bununla üçüncü dəfədir ki Bakıdayam və hər dəfə də şəhərin küçələrində velosipedçilərin sayının artdığını görürəm. Eyni zamanda, bölgələrdə bu idman növünə marağın artdığının şahidi oluram. Hesab edirəm ki, Azərbaycan Velosiped İdmanı Federasiyasının həyata keçirdiyi tədbirlər, reallaşdırdığı layihələr ölkədə bu idman növünün inkişafını daha da sürətləndirəcək.

Xüsusi vurğulamaq istərdim ki, velosiped idmanı hər bir ölkənin təbliği baxımından mühüm əhəmiyyətə malikdir. Çünki bu idman növü üzrə yarışlar hansısa qapalı məkanda deyil, uzun məsafədə təşkil olunur. Beynəlxalq səviyyəli veloturların təşkili dünyanın Azərbaycanı daha yaxından tanımasına imkan yaradır. Ən müxtəlif ölkələrdən gələn insanlar respublikanın iqtisadiyyatı, mədəniyyəti, adət-ənənələri, təbiəti ilə tanış olurlar. Bu baxımdan, velosiped idmanının inkişafına qoyulan sərmayə Azərbaycanın tanıdılması baxımından yaxşı perspektivlər vəd edir.

***- Azərbaycanı «Tour d'Azerbaidjan - 2013»də təmsil etmiş «Synergy Baku Cyclinq Project» komandası ilə bağlı qənaətiniz necədir?***

- Hesab edirəm ki, yeni yaranmış komanda özünü uğurla təsdiq etmişdir. Dünyanın bir çox ölkələrində velosiped federasiyalarının himayəsi ilə yaradılan komandalar mövcuddur. Məsələn, Rusiyanın «Katyuşa», Britaniyanın «Skay», Qazaxıstanın «Astana» komandaları beynəlxalq səviyyədə tanınırlar. Azərbaycan Velosiped İdmanı Federasiyasının himayəsi ilə yaradılmış «Synergy Baku Cyclinq Project» komandasında da çox perspektivli, güclü idmançılar təmsil olunurlar. Komandada azərbaycanlı velosipedçilərin sayının ildən-ilə artacağına ümid edirəm. Ümumilikdə, komandanın «Tour d'Azerbaidjan»dakı uğurlu çıxışı onun böyük potensiala malik olduğunu, gələcəkdə daha uğurlu nəticələr əldə etmək əzmini göstərdi.

***- Beynəlxalq Velosipedçilər İttifaqının velosiped idmanının inkişafı ilə bağlı hədəfləri nədən ibarətdir?***

- Əsas məqsəd velosiped idmanının qloballaşmasına nail olmaqdır. Beynəlxalq Velosipedçilər İttifaqının dünya ölkələrində velosiped idmanının inkişafı ilə bağlı xüsusi strategiyası var. Bu strategiya velosiped idmanının inkişaf etməkdə olan ölkələrdə də geniş yayılmasını və təbliğini nəzərdə tutur. Avropa ölkələrinin əksəriyyətində velosiped idmanı yüksək səviyyədə inkişaf etmişdir. Bu baxımdan, Cənubi Qafqaz, Orta Asiya, Yaxın Şərq ölkələrində də bu idman növünün inkişafı əsas hədəflərimizdəndir.

**Samir MUSTAFAYEV**



Aylin KOÇ

Türkiyənin «Cyclingtr.com» xəbər agentliyinin baş redaktoru

# «Tour d'Azerbaidjan» güclü təməllər qoydu

*Qardaş ölkə Azərbaycana gedib «Tour d'Azerbaidjan» velosiped turnirində iştirak etmək «Cyclingtr.com» xəbər agentliyi olaraq bizim üçün bir şərəf idi. Açığı, bu tədbirə gedib-getməmək barədə tərəddüd edirdim, sonradan getmək üçün qəti qərara gəldim.*

Bu möhtəşəm yarışa qatılmağımın xüsusi səbəbləri var idi: Azərbaycanın bu miqyasda dünya turnirinə ev sahibliyi etmək üçün hazırlıqları hansı səviyyədə apardığını və yarışda iştirak edən idmançıların turnirə münasibətini öyrənmək. İlk təəssüratlarım məndə Azərbaycanda yüksək texnologiyaların inkişaf ediyi və idman infrastrukturlarının beynəlxalq yarışları keçirməyə tam imkan verdiyi qənaətini yaratdı. Azərbaycan dövlətinin bu turniri keçirmək üçün gördüyü hazırlıq, həqiqətən, təqdir olunmalıdır.

...Turnirin açılış mərasiminə gözlədiyimizdən xeyli adam toplaşmışdı. Komandaların təqdimatları başlayanda mərasimə toplaşanların sayı 3000 nəfərdən çox idi və gələnlərin ardı-arası kəsilmirdi. Türkiyənin «Torku Şəkərspor» komandası arenaya çıxdıqda sürəkli alqışlar başladı. Bu atmosfer izahedilməz dərəcədə gözəldi, türk qardaşlığının ürəklərə hopmuş məhəbbəti möhtəşəm bir aura yaratmışdı. Mərasimin sonunda Azərbaycanın velosiped komandasının - «Synergy Baku Cycling Project»in təqdimatı oldu. Xəzər sahilindəki bulvarda aramsız alqış sədaları yüksəlirdi. Bu qürurverici mühit açılış mərasiminin ardınca Mustafa Cecelinin konsertində bir qədər də canlandı. Minlərlə adamın qatıldığı konsert velosiped turnirinin bayrama çevriləcəyindən xəbər verirdi.

... Təşkilat komitəsinin işi və xidmətləri barədə çox detallara toxunmayacam. Qısaca onu deyə bilərəm ki, komitə hər şeyi tam beynəlxalq normalara uyğun təşkil etmişdi. Yarışla bağlı operativlik, həssas yanaşma velosiped eşqimi və velosipedə verilən dəyərlərə hissimi artırırdı. Qafqaz dağları ilə əhatələnmiş yarış sahələri füsunkar təbiətin qoynunda insana güc verir, sağlam ovqat yaradırdı. Yarışı izləyən dostlarımın fikirlərindən hiss edirdim ki, Qəbələnin bu gözməli-gəzməli yerləri onların canındakı bütün yorğunluğu çıxarıb. Üç tərəfdən Qafqaz dağları ilə əhatə olunmuş təbiətin gözəl mənzərəsi, xoş rayihəli meşələrin bol oksigeni yarışdan reportaj hazırlamağa əməllibaşlı həvəs yaradırdı. Açığını deyim ki, içimdə oxucularımıza bütün məlumatları təfərrüatlı şəkildə çatdırmaq həyəcanı, bir az da yorğunluq var idi. Türkiyə seyrçilərinin və idman ictimaiyyətinin velosiped yarışlarına marağı çox böyükdür, bunu nəzərə alaraq məsuliyyətimi dərk edirdim, marafonun hər anını, idmançıların yüz kilometrlərlə məsafə qət edərək apardıqları mübarizənin hər bir detalını, pərdəarxası məqamları reportajda əks etdirmək, oxucuda maraq doğura biləcək xəbərləri portala sığışdırmaq özümə də zövq verirdi və bu proses ilk günlər davam edən yorğunluğumu aradan qaldırdı. Bu velotur mənə o qədər yaxşı təsir bağışlamışdı ki, özümdən asılı olmayaraq, Azərbaycanda velosipedin fanatına çevrildim.

...İlk gündən yarışla bağlı təşkilati işlərin çox yüksək səviyyədə olması məndə turnirin maraqlı və əsl idman mübarizəsi şəraitində keçəcəyinə əminlik yaratmışdı. Hoteldəki insanların davranışından gördüm ki, təşkilatçılar turnirə çox yaxşı hazırlaşıblar. Diqqətimi cəlb edən buradakı səmimiyyət, yüksək şərait, Azərbaycan mətbəxinin əvəzolunmazlığı idi. Menyü möhtəşəm idi. Şübhəsiz, burada türk mətbəxi nümunələrinin də olması, ölkədən uzaqda olsam belə, doğmalıq hissini artırırdı.

...Ətrafımdakı dostlarımın, yeni tanış olduğum insanların, ingiliscə, almanca və türkcə xəbərləri çatdıran televiziya və xəbər portalları əməkdaşlarının da əhval-ruhiyyəsi, qənaəti xoş təsir bağışlayırdı. Çoxları velosiped turnirinin yekununda neçə yüz kilometrləri qət edib, bəlkə də, «evim, evim, gözəl evim», - deyə öz ölkəsinə dönməyi gözləyərkən məni qəribə bir hiss bürümüşdü. Bazar günü final mərhələsinin sonunda vidalaşıb evlərinə dönən dostlarımı sanki burda saxlamağa cəhd edirdim. Yeddi günlük səfər məni Azərbaycana o qədər bağlamışdı ki, ayrılmaq istəmirdim. Hoteldəki əşyalarımı yığmağa əlim gəlmir, bu gözəl diyarda günlərlə qalmaq üçün daha bir turnirin keçirilməsini arzulayırdım. Bu cür hissləri Türkiyədə «Torku Şəkərspor» turniri zamanı oradakı ab-havada da keçirmişdim. Azərbaycana olan məhəbbətim, «qardaş ölkə» düşüncəsi, doğmalıq hissləri indi məni bura bağlamışdı. Mənə görə, Azərbaycan «qardaş ölkə» səviyyəsindən xeyli irəli gedib.

...Yarışın son günüdür. Final mərhələsinə qatılan Beynəlxalq Velosipedçilər İttifaqının rəhbəri Patrik Makkuayt mətbuat konfransında turnirin uğurla başa çatdığını, Azərbaycanın velosiped yarışlarını keçirməkdə yaxşı təcrübəyə malik olduğunu bildirir. Hazırladığım reportajın əsas süjet xətti də budur: «Tour d'Azerbaidjan» ölkənin velosiped idmanının inkişafı üçün güclü təməllər qoydu.

«Azərbaycan və Türkiyə velosiped idmanı inkişaf etsin» arzusuyla hava limanına yollanıram. Burada gördüyüm bir mənzərəni də unuda bilmirəm. Sırada gözləyən uşaqlı qadını viza sırasından çıxarıb növbəsiz yola salan sərhəd-keçid məntəqəsi məmurunun bu hərəkəti məndə Azərbaycan xalqının mədəniyyətinə daha da böyük heyranlıq yaratmışdı...

# Ümummilli liderin yubileyinə həsr olunmuş beynəlxalq turnir

*10-12 may 2013 il tarixlərində Xaçmaz rayonunda (Nabran) müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş səmti müəyyənetmə idmanı üzrə Birinci Beynəlxalq Açıq Kubok yarışı keçirilmişdir.*

Yarış xarici mütəxəssislər tərəfindən yeni hazırlanmış və bütün beynəlxalq standartlara cavab verən üç idman xəritəsi üzrə keçirilmişdir. Azərbaycan idmançılarından əlavə, turnirdə Gürcüstan, Qazaxıstan, Çin, Moldova, Rusiya, Türkiyə, Ukrayna və Fransa kimi ölkələrdən gəlmiş idmançılar da iştirak etmişlər.

Yarışın iki günü ərzində 29 komandanı təmsil edən idmançıların ümumi sayı 241 nəfərə çatmışdır. Müqayisə üçün qeyd edək ki, 2011 ildə keçirilmiş açıq çempionatda 26, 2012-ci ildə isə 130 idmançı iştirak etmişdi.

Yarışın ilk günündə uzun məsafəyə qaçışlar keçirilmişdir. Həmin məsafədə iştirakçılar müvafiq olaraq 18 və 14 nəzarət məntəqəsində qeyd olunmalı idilər. İlk günün nəticələrinə görə kişilər arasında birinci yerə Rusiya Federasiyasının idman ustası İlya Slepov layiq görülmüş, gümüş medalı həmin ölkədən idman ustalığına namizəd Artyom Suxov qazanmış, 3-cü yeri isə Ukrayna təmsilçisi, idman ustalığına namizəd Rostislav Dolqopolov tutmuşdur.

Q-21 (elit) qrupunda uzun məsafədə qadınlar arasında ən yaxşı göstəricini Rusiyanın idman ustası Yuliya Truxina göstərmiş, ikinci yeri ukraynalı idmançı Mariya Puqaç tutmuş, bürünc medalı isə Azərbaycanın idman ustası Natalya Əliyeva («Neftçi» klubu) qazanmışdır.

OPEN qrupunda uzun məsafədə (4,4 km - 8 NM) kişilər arasında Aleksey Zakobluk (Azərbaycan, Alpinist-Turist Klubu), Vadim Qalkin və Anar Cəfərov (Azərbaycan Skautlar Assosiasiyası) fərqlənmişlər. Qadınlar arasında 3,5 km - 8 NM məsafədə Aytac Hacızadə (Azərbaycan, Şəki Şəhər İcra Hakimiyyətinin komandası), Miroslava Mişenko (Ukrayna) və Kəmalə Qəhrəmanova (AR FHN komandası) qalib olmuşlar.

Kubok yarışının ikinci günündə verilmiş istiqamət üzrə qısa məsafədə qaçışlar keçirilmişdir. Nəticədə kişilər arasında K-21 (elit) qrupunda (4,05 km - 13 NM) Rusiya Federasiyasının idman ustası İlya Slepov qalib gəlmiş, gümüş medala həmin ölkədən idman ustalığına namizəd Artyom Suxov layiq görülmüş, 3-cü yeri isə Moldovanı təmsil edən, idman ustalığına namizəd Andrey Bezdıqa tutmuşdur.

Qadınlar arasında Q-21 (elit) qrupunda qısa məsafədə (3,1 km - 10 NM) RF idman ustası Yuliya Truxina qalib gəlmiş, ikinci yeri Ukrayna təmsilçisi Mariya Puqaç tutmuş və bürünc medalı Azərbaycanın idman ustası Natalya Əliyeva («Neftçi» klubu) qazanmışdır.

OPEN qrupunda qısa məsafədə (3 km - 11 NM) kişilər arasında da ən yaxşı nəticələri Əziz Ələskərov (Azərbaycan, Alpinist-Turist Klubu), Aqşin Məmmədov (Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) və Aleksey Zakobluk (Azərbaycan, Alpinist-Turist Klubu) göstərmişlər.

OPEN qrupunda qadınlar arasında qısa məsafədə (2.3 km - 10 NM) Ellina Çerpakova (Bakı Slavyan Universiteti), Rövşanə Babayeva (Azərbaycan Skautlar Assosiasiyası) fərqlənmiş, üçüncü yeri isə Ülkər Həmdullayeva (Azərbaycan, fərdi hesab) tutmuşdur.



Komanda hesabında yarışın iki günü üzrə alınmış nəticələrə görə peşəkar səmti müəyyən edən idmançılardan ibarət Rusiya Federasiyasının komandası qalib olmuş, ikinci yeri həm Ukraynadan gəlmiş idmançılar, həm də bu ölkənin Azərbaycandakı səfiri A.Mişenko daxil olmaqla, səfirliyin əməkdaşlarından ibarət Ukrayna komandası qazanmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş turnirin bürünc medalını isə səmti müəyyənetmə idmanı ilə cəmi 1 ildir ki, məşğul olan, lakin yaxın gələcəkdə yüksək nailiyyətlər əldə etmək üçün böyük potensiala malik «Neftçi» (Azərbaycan) klubunun komandası qazanmışdır.